QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim
üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 106 (5826) **14 iyun** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymət 40 qəpik**


## “Azərbaycan Avropanı geniş Avrasiya məkanı ilə birləşdirən mühüm nəqliyyat dəhlizidir”

*Prezident İlham Əliyev Avropa İttifaqı komissarının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2

5

YAP-da 15 İyun - Milli Qurtuluş Günü qeyd olunub



8

5100 metr uzunluğunda dövlət bayrağı ilə sərhədçi yürüşü



11

Fransanın Qrenobl inzibati məhkəməsi də erməniləri məyus etdi



# “Azərbaycan Avropanı geniş Avrasiya məkanı ilə birləşdirən mühüm nəqliyyat dəhlizidir”

*Prezident İlham Əliyev Avropa İttifaqı komissarının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, münasibətlərimizin hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi.

Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Han bu gün iştirak etdikləri V Azərbaycan-Avropa İttifaqı Biznes Forumuna toxunaraq, buraya xeyli sayda iştirakçının gəlməsini bu tədbirə verilən önəm kimi dəyərləndirdi və Forum çərçivəsində iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı çox səmərəli müzakirələrin aparıldığını qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı mühüm işlərin görüldüyünü və artıq yaxşı nəticələrin əldə edildiyini bildirdi. Prezident İlham Əliyev müxtəlif sahələrdə, o cümlədən sənaye, kənd təsərrüfatı, turizm və digər sahələrdə nailiyyətlər əldə edildiyini vurğulayaraq, bütün bunların ölkənin davamlı iqtisadi inkişafı üçün yaxşı əsas yaratdığını dedi.

Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Han Azərbaycanı Avropa İttifaqı üçün aparıcı tərəfdaş ölkələrdən biri kimi qiymətləndirdi və Avropa İttifaqının ölkəmiz ilə bütün sahələrdə əməkdaşlığa xüsusi diqqət yetirdiyini vurğuladı. Qonaq onu da qeyd etdi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzrə danışıqların yekunlaşması əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə ciddi təkan verəcək. O, Azərbaycanın Avropa İttifaqı üçün enerji sahəsində əsas strateji tərəfdaş olduğunu bildirdi və Cənub Qaz Dəhlizi layihəsinin qısa zamanda yekunlaşacağına əminliyini ifadə etdi. Komissar Yohannes Han, həmçinin qeyd etdi ki, Azərbaycan Avropanı geniş Avrasiya məkanı ilə birləşdirən mühüm nəqliyyat dəhlizidir və bu sahədə saziş və layihələrin imzalanması və həyata keçirilməsinin tərəfdarıdır.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin də vacibliyi vurğulandı.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq və regional təhlükəsizlik məsələləri müzakirə olundu.

# İspaniya jurnalında İmadəddin Nəsimi haqqında məqalə çap olunub

***İspaniyanın nüfuzlu “Ejecutivos” jurnalının may ayı buraxılışında dahi Azərbaycan şairi İmadəddin Nəsiminin həyat və yaradıcılığı ilə bağlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, Madrid şəhərində İspaniyanın nüfuzlu “Ejecutivos” jurnalının sayca 29-cu mükafatlandırma mərasimi keçirilib.***

Tədbirdə İspaniyanın dövlət rəsmiləri, müxtəlif nüfuzlu beynəlxalq və yerli şirkətlərin təmsilçiləri, ictimaiyyət, yerli kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər. Tədbir zamanı adıçəkilən jurnalın may ayı buraxılışı təqdim edilib. Nəfis tərtibata malik jurnalda böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin həyat və yaradıcılığı ilə bağlı məqalə dərc olunub.

Məqalədə dahi şairin irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığı, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyəti nəzərə alınaraq Azərbaycanda 2019-cu ilin “Nəsimi ili” elan olunduğu diqqətə çatdırılıb. Ədibin ümumilikdə Şərq dünyasının mədəniyyət tarixində özünəməxsus yerə malik olduğu qeyd olunub, dahi şairin humanist ideyaları və mənəvi dəyərləri barədə geniş məlumat verilib.

Qeyd olunub ki, Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm




əhəmiyyətə malikdir. Türkdilli xalqların mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir.

Məqalədə vurğulanıb ki, şairin irsinin Azərbaycanda sistemli şəkildə tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin anadan olmasının 600 illiyinin keçirildiyi vaxta təsadüf edib, 1973-cü ildə böyük söz ustasının 600 illik yubileyi UNESCO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edilib və beynəlxalq miqyasda qeyd olunub, həmin dövrdən etibarən Nəsimi yaradıcılığı ilə bağlı çox sayda araşdırmaların aparılıb. Dahi şairin həyat və yaradıcılığını özündə əks etdirən məqalə tədbir iştirakçıları tərəfindən böyük maraq və rəğbətlə qarşılanıb.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev “Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli 1853 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanunu imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatı istehsalının, idxalının və satışının tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında” 1999-cu il 5 fevral tarixli 90 nömrəli, “Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında “bir pəncərə” prinsipinin tətbiqi haqqında” 2008-ci il 11 noyabr tarixli 12 nömrəli fərmanlarında, 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”də, 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”də, 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və digər buraxılış sistemlərindən istifadə Qaydaları”nda və 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanı ilə təsdiq edilmiş “www.azexport.az” internet portalı haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 30 may tarixli 1602-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin yaradılması haqqında” 2004-cü il 21 fevral tarixli 35 nömrəli, “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli, “Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin yaradılması haqqında” 2007-ci il 12 mart tarixli 543 nömrəli və “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2010-cu il 4 iyun tarixli 276 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Heydər Əliyev Fondu uşaqlarla bağlı müxtəlif layihələr reallaşdırır

*Birinci vitse-prezident Mehriban Əliyeva Bakının Binə qəsəbəsində “Ümid yeri” uşaq sığınacağının yeni binasının açılışında iştirak edib*

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva iyunun 13-də Bakının Xəzər rayonunun Binə qəsəbəsində “Ümid yeri” uşaq sığınacağının yeni inşa olunan binasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, “Ümid yeri” uşaq sığınacağının köhnə binası müasir tələblərə cavab vermədiyindən Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa olunub. Birinci vitse-prezident Mehriban Əliyeva binada yaradılan şəraitlə tanış oldu. Müəssisənin rəhbəri Nigar Mənsimova “Ümid yeri” uşaq sığınacağının fəaliyyəti barədə Mehriban Əliyevaya məlumat verdi.***

Qeyd edildi ki, uşaq sığınacağı 1997-ci ildə təsis olunub. Burada 18 yaşınadək şəxslər məskunlaşır. Sığınacaqda qaldıqları müddətdə onlara hüquqi, mənəvi, sosial və tibbi yardımlar edilir, uşaqların cəmiyyətə adaptasiya olunmalarına və təhsil almalarına dəstək göstərilir. Müəssisədə sığınacaq sakinlərinin zövqlərinin formalaşması, istedad və bacarıqlarının inkişafı məqsədilə müxtəlif sənət sahələri - xalçaçılıq, rəssamlıq, əl işləri üzrə emalatxanalar yaradılıb. Uşaqların iştirakı ilə yaradılan “Keçə” rəsm əsəri Heydər Əliyev Fondunun prezidentinə hədiyyə edildi.

İkimərtəbəli müəssisənin binası 53 yerlikdir. Yeni bina oğlanlar, qızlar və kiçik yaşlı uşaqlar üçün bölmələrin yaradılmasına imkan verib. Bütün otaqlar müasir avadanlıqla təchiz edilib. Uşaq sığınacağında yataq, sinif otaqları, informatika kabinetləri, sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət və əyləncə zonaları, yeməkxana yaradılıb.



Sonra Birinci vitse-prezident Mehriban Əliyeva uşaq sığınacağının sakinləri ilə görüşərək onlarla söhbət etdi. On yaşlı Ömər Musayev yeni binada yaradılan şəraitin onların ürəyincə olduğunu söylədi. Dedi ki, burada təhsil almaq, asudə vaxtlarını maraqlı keçirmək üçün bütün imkanlar var. O, görülən işlərə görə sığınacaq sakinlərinin adından Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirdi. Uşaqların arzuları ilə maraqlanan Heydər Əliyev Fondunun prezidenti sığınacaq sakinlərinin yanına yenə də qonaq gələcəyini dedi. Mehriban Əliyeva qeyd etdi ki, indi bütün lazımi şəraitlə təmin olunan uşaqların əsas vəzifəsi yaxşı oxumaqdır. Müəssisənin balaca sakinləri Birinci vitse-prezidentə musiqiyə, rəsm çəkməyə həvəs göstərdiklərini söylədilər, mahnı ifa etdilər.











Heydər Əliyev Fondu uşaqlarla bağlı müxtəlif layihələr reallaşdırır. Xeyriyyəçiliyi, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını, müxtəlif humanitar aksiyaları fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən edən Fond paytaxtdakı uşaq müəssisələrinin sakinləri üçün yaradılan şəraitin daha da yaxşılaşdırılması məqsədilə mühüm layihələrə imza atır. Bu istiqamətdə görülən işlərdən biri də “Ümid yeri” uşaq sığınacağı üçün yeni binanın inşasıdır. Binanın həyəti abadlaşdırılıb, yaşıllıq zonası salınıb. Birinci vitse-prezident Mehriban Əliyeva “Ümid yeri” uşaq sığınacağına fəaliyyətində uğurlar arzuladı.




# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 2 nömrəli Uşaq İncəsənət Məktəbindəki şəraitlə tanış olub

***İyunun 13-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonunda Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbindəki şəraitlə tanış olub.***





AZƏRTAC xəbər verir ki, Mədəniyyət naziri Əbülfəs Qarayev Birinci vitse-prezident Mehriban Əliyevaya məktəb haqqında məlumat verdi. Bildirildi ki, bu təhsil müəssisəsi 1940-cı ildə 1 nömrəli uşaq musiqi məktəbi kimi fəaliyyətə başlayıb. Məktəbə 1985-ci ildə Vaqif Mustafazadənin adı verilib. 1988-ci ildən isə 2 nömrəli uşaq incəsənət məktəbi kimi fəaliyyətini davam etdirib və burada əlavə şöbələr açılıb.

Qeyd edildi ki, Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbini bir çox məşhurlar bitirib. Azərbaycanın Xalq artistləri Arif Məlikov, Aqşin Əlizadə, Oqtay Zülfüqarov, Oqtay Rəcəbov, Kamil Cəlilov, Ağaverdi Paşayev və Azərbaycanın mədəniyyətinə böyük töhfələr vermiş bir çox sənətkarlar bu məktəbdə təhsil alıblar.

Hazırda məktəbdə fortepiano, skripka, gitara, klarnet, saksofon, vokal, xanəndə, tar, kamança, qarmon, nağara, rəssamlıq, xoreoqrafiya ixtisasları, nəzəriyyə və tədris köməkçi fənləri ixtisası üzrə 385 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 78 müəllim məşğul olur.

Diqqətə çatdırıldı ki, Azərbaycanın Əməkdar artisti Vaqif Mustafazadə 1949-1956-cı illərdə məktəbin fortepiano şöbəsində təhsil alıb. Bu məktəbin şagirdləri müxtəlif respublika və beynəlxalq müsabiqələrdə, festivallarda uğurla iştirak edərək yüksək nəticələr əldə edirlər. Məktəbin yerləşdiyi bina indiyədək əsaslı təmir edilməyib. Birinci vitse-prezident Mehriban Əliyeva məktəbdə müvafiq təmir-bərpa işlərinin aparılmasına dair göstəriş verdi.

# Yasamal rayonundakı 11 saylı körpələr evi-uşaq bağçasının yeni binasının açılışı olub

## *Birinci vitse-prezident Mehriban Əliyeva açılışda iştirak edib*

***İyunun 13-də Bakının Yasamal rayonundakı 11 saylı körpələr evi-uşaq bağçası üçün Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən yeni binanın açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.***







Məktəbəqədər təhsil ocağında yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verildi ki, 2 korpusdan ibarət 11 saylı körpələr evi-uşaq bağçası müasir tələblərə cavab vermədiyindən mövcud 150 yerlik binası sökülüb, onun yerində Heydər Əliyev Fondunun təşəbbüsü ilə müasir tipli 200 yerlik körpələr evi-uşaq bağçası tikilib. Körpələr evi-uşaq bağçasının inşasına 2018-ci ilin mayında başlanılıb. Tikinti işləri yüksək səviyyədə həyata keçirilib.



Bildirildi ki, yeni binada komplektləşdirilmiş qrup otaqları, mətbəx və yeməkxana, idman və musiqi zalları, həmçinin digər otaqlar var. İkimərtəbəli məktəbəqədər təhsil müəssisəsinin otaqları və dəhlizləri uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarlarla, mebel dəstləri ilə təchiz edilib. Məktəbəqədər təhsil müəssisəsində 6-sı Azərbaycan, 4-ü isə rusdilli bölmə olmaqla ümumilikdə 10 qrup fəaliyyət göstərəcək. Körpələr evi-uşaq bağçasında bir yaşdan 6 yaşadək 200 uşağın təlim-tərbiyəsi ilə 46 nəfərdən ibarət peşəkar heyət məşğul olacaq.



Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması və vətənpərvər, savadlı şəxsiyyətlər kimi yetişmələri istiqamətində Azərbaycan dövləti çox mühüm layihələr həyata keçirir. Bu işlərə Heydər Əliyev Fondunun töhfəsi də olduqca əhəmiyyətlidir. On bir saylı körpələr evi-uşaq bağçasının yerləşdiyi ərazidə və ətrafda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb. Burada balacaların istirahəti üçün oyun və idman avadanlığı da var. Bir sözlə, müəssisədə balacaların vaxtlarını maraqlı və səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb.

# YAP-da 15 İyun - Milli Qurtuluş Günü qeyd olunub










***Dünən Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin təşəbbüsü ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə giriş sözü ilə çıxış edən YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədri Riyad Rüstəmli 15 İyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən danışıb.***

Sonra YAP Gənclər Birliyinin 15 İyun - Milli Qurtuluş Günü münasibətilə hazırladığı vido-çarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov 15 İyun - Milli Qurtuluş Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Əli Əhmədov bildirib ki, Milli Qurtuluş Günü müasir Azərbaycan tarixinin dönüş nöqtəsidir. Onun sözlərinə görə, Azərbaycanın müasir tarixini Milli Qurtuluş Günündən və bu günə səbəb olan Ümummilli liderimiz Heydər Əliyevin möhtəşəm qayıdışından ayrı təsəvvür etmək mümkün deyil: "Şübhəsiz ki, Ulu öndər Heydər Əliyevin möhtəşəm qayıdışı olmasaydı və milli qurtuluşumuz baş tutmasaydı, tamam fərqli bir Azərbaycanda yaşamağa məhkum olardıq. O Azərbaycan indi bizim üçün dəyərli olan, bizim hər birimizin qürur duyduğumuz Azərbaycandan fərqlənmiş olacaqdı. Ona görə də biz tam məsuliyyətlə Azərbaycanın müasir tarixinin iki fundamental əsasını qeyd edə bilərik. Bunun biri Azərbaycanın öz dövlət müstəqilliyini yenidən bərpa etməsidirsə, ikincisi, Ümummilli lider Heydər Əliyevin tarixi qayıdışı və Onun Azərbaycana bəxş etdiyi Milli Qurtuluş Günüdür".

Əli Əhmədov deyib ki, 1990-cı illərin əvvəlində Azərbaycan dərin siyasi, sosial-iqtisadi böhran keçirirdi, ölkədə xaos, anarxiya baş alıb gedirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə, xalqımız nicat yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü.

YAP Sədrinin müavini qeyd edib ki, xalqımız tərəfindən 15 İyun - Milli Qurtuluş Günü müasir tariximizin ən önəmli hadisəsi kimi qeyd edilir, dəyərləndirilir. Bu, onunla ələqədardır ki, insanlar bugünkü həyatlarını, ölkəmizin bugünkü firavanlığını və gələcəklə bağlı aydın görünən perspektivlərini Milli Qurtuluş Günü ilə, Heydər Əliyevin tarixi qayıdışı ilə bilavasitə əlaqələndirirlər. Çünki Azərbaycanın müasir tarixində, hər bir vətəndaşın həyatında baş verən müsbət dəyişikliklər, ilk növbədə, Heydər Əliyevin möhtəşəm qayıdışı və bu qayıdışın yaratdığı Qurtuluş məfkurəsi ilə birbaşa bağlıdır.

Əli Əhmədov deyib ki, qurtuluş və Heydər Əliyevin möhtəşəm qayıdışı Azərbaycan xalqının istəyinin və iradəsinin ifadəsi kimi qəbul olunur: "Ölkəmizin tarixinin ən həssas dövründə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın mövcudluğunun, müstəqilliyinin və gələcək inkişafının yeganə və həlledici səbəbi kimi qavranılır. Bu gün o dövrə qayıdarkən və Azərbaycanın indiki reallıqlarını göz önünə gətirib müqayisə apararkən Heydər Əliyevin möhtəşəm qayıdışının Azərbaycanın müasir tarixində və hər bir vətəndaşın həyatında nə qədər önəmli bir hadisə olduğunu dəyərləndirmək çətin olmaz. Heydər Əliyevin tarixi qayıdışı Azərbaycanın müstəqilliyinin xilası idi. Bu qayıdışın əsasını Qurtuluş məfkurəsi təşkil edir. Qurtuluşun digər mənası Azərbaycanın siyasi təlatümlərdən xilas edilməsi ilə bağlıdır. O dövrü xatırlayanlar bunun nə demək olduğunu aydın şəkildə təsəvvür edirlər. Qurtuluş, eyni zamanda, iqtisadi tənəzzülün qarşısını aldı. Bu da Heydər Əliyevin böyük qayıdışını əks etdirən çox vacib məqamlardan biridir. Eyni zamanda, bir məqam da odur ki, qurtuluş Azərbaycanı o zaman düçar olduğu beynəlxalq təcriddən xilas etdi. Ümumiləşmə apararaq demək olar ki, Qurtuluş məfkurəsi Azərbaycanın mənəvi böhrandan, mənəvi aşınmadan xilas olması mənasını daşıyır. Heydər Əliyevin hakimiyyətə qayıdışı, əslində, Azərbaycanı bütün istiqamətlər üzrə bürümüş böhrandan xilas etdi. Bu, Heydər Əliyevin xilaskarlıq missiyasını özündə ehtiva edirdi. 1990-cı illərin əvvəlində Azərbaycan təlatümlü anlarını yaşayanda xalqın qəlbində əsas kök salan istəklər hər şeydən əvvəl Azərbaycanın məhv olmaqdan xilas olunması ilə bağlı idi. Bu xilası da Ümummilli lider Heydər Əliyevin adı ilə əlaqələndirirdilər. Heydər Əliyevin atdığı qətiyyətli addımlar insanların bu gözləntilərini tamamilə doğrultdu".

Müstəqilliyin əvvəllərində Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran Əli Əhmədov Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib. Baş nazirin müavini qeyd edib ki, Ulu öndərin işləyib hazırladığı müasir, müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoyub.

Azərbaycanın sürətli inkişaf dövrünün məhz Milli Qurtuluş Günü ilə başladığını vurğulayan Əli Əhmədov həmin siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini diqqətə çatdırıb. Milli qurtuluşun Azərbaycanın müasir tarixində böyük bir dövrü əhatə etdiyini deyən Baş nazirin müavini bildirib ki, Azərbaycan öz inkişafına görə XX əsrin sonunda müstəqilliyinə qovuşan respublikalardan açıq şəkildə seçilir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatının 3,5 dəfə artması, əhalinin rifah halının xeyli yaxşılaşması bu inkişafın əsas göstəriciləridir. "Qurtuluşdan başlanan tarixi yol bu gün də davam etdirilir. Ölkəmizin bugünkü tərəqqisi, Prezident İlham Əliyevin siyasəti qurtuluşdan qaynaqlanır və ondan güc alır. Qurtuluşdan danışarkən bugünkü reallıqları göz önünə gətirmək kifayət edir ki, ölkəmiz nə qədər nailiyyətlər qazanıb. Beləliklə, qurtuluş qısa müddətdə ölkəmizin böyük inkişaf mərhələsinin əsası olub və bundan sonrakı dövr üçün də etibarlı əsaslar yaradıb", - deyə YAP Sədrinin müavini qeyd edib.

Əli Əhmədov bildirib ki, bu gün Prezidentin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti məhz ölkəmizin daha da güclənməsinə və xalqın rifahının yüksəlməsinə xidmət edir: "İnanırıq ki, Qurtuluş məfkurəsi öz möcüzəsini bir dəfə göstərdiyi kimi, bundan sonra da göstərəcək. Qurtuluş elə bir sönməyən enerjidir ki, uzun dövrlər Azərbaycan xalqına xidmət edəcək. İnanırıq ki, illər ötdükcə Qurtuluş məfkurəsinin bizə verdiyi faydalar daha da artacaq və qurtuluşun növbəti ildönümlərini daha böyük uğurlarla qeyd edəcəyik".

YAP Sədrinin müavini söyləyib ki, Azərbaycanın iqtisadiyyatı inkişaf etdikcə, maliyyə imkanları artdıqca hökumət tərəfindən əhalinin rifahının daha da yüksəlməsi istiqamətində addımlar atılacaq, proqramlar reallaşdırılacaq. Onun sözlərinə görə, Prezident İlham Əliyev öz çıxışlarında bu fikirləri dəfələrlə bəyan edib.

Əli Əhmədov qeyd edib ki, 1992-93-cü ildə hakimiyyətdə olan və Azərbaycanı məhv olmaq təhlükəsi ilə üz üzə qoyan qüvvələr bu gün ölkəmiz haqqında əsassız fikirlər söyləyir, sosial şəbəkələrdə yanlış məlumatlar yayırlar. "Hansı ki, onların hakimiyyəti dövründə ölkədə infilyasiya 1600 faizi ötmüşdü, siyasi böhran, xaos anarxiya getdikcə dərinləşirdi. Həmin insanların bu gün Azərbaycanın inkişafına, uğurlarına qarşı fikirlərinin heç bir əsası yoxdur. Gənclərimiz belələrinə qarşı, onların yalanlarına qarşı mübarizəni davam etdirməli, yalanlarını ifşa etməlidirlər".

YAP Sədrinin müavini gənclərə uğurlar arzulayıb və əminliklə bildirib ki, 15 İyun Milli Qurtuluş Günü növbəti illərdə ölkəmizin daha böyük uğurları ilə qeyd olunacaq. Tədbirdə həmçinin, YAP Suraxanı rayon təşkilatı Gənclər Birliyinin sədri Fərəh Məcidzadə, YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədri Salman Salmanov, YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin sədri Nərmina Yunusova və YAP Yasamal rayon təşkilatı Gənclər Birliyinin sədri İlqar Quliyev çıxış edərək 15 İyun Milli Qurtuluş Gününün əhəmiyyətindən, Azərbaycan dövlətinin gənclərə qayğısından danışıblar.

***Ceyhun Rasimoğlu***

# Qurtuluşun fəlsəfəsi

***Yalnız yüksək amallara xidmət edən cahanşümul bir ideya, qloballaşan dünyada gedən proseslərin obyektiv dərkinə əsaslanan hərtərəfli işlənib hazırlanmış elmi konsepsiya bu gün haqqında hər birimizin böyük qürur hissi ilə danışdığımız müstəqil, dinamik inkişaf edən Azərbaycan reallığını ərsəyə gətirə bilərdi. Yaxın tarixi təcrübəmiz real şəkildə sübut etdi ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə, millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəm şərti hesab oluna bilər. 15 iyun Milli Qurtuluş Gününün yaranma fəlsəfəsi də məhz yuxarıda qeyd etdiyimiz ali və uca missiyaya xidmət edən bir ideologiya ilə silahlanmış qüdrətli rəhbərin düşüncə və fəaliyyəti prizmasında dəyərləndirilməlidir.***

Ümummilli Lider Heydər Əliyevin vaxtilə söylədiyi "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" deyimini bu gün də həyacansız xatırlamaq mümkün deyil. Ona görə ki, xalqımızın əsrlər boyu uğrunda mübarizə apardığı, lakin əsl milli dəyər mahiyyətini bugünkü uğurlarımızda daha real dərk etdiyi müstəqillik idealında cəmiyyətimizin qarşılaşdığı məşəqqət, faciəli anlar ağrılı günlər öz izini qoymuşdur. Ulu Öndərin bu həyat manifesti bizdə ölçüyəgəlməz qürur hissi doğurur, çünki bu optimizmdə onun rəhbərliyi ilə milli varlığımızın taleyüklü problemlərinin həlli yolunda atılan uğurlu addımları, milli tərəqqiyə mane olan neqativ əyintiləri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq əzmi və bacarığı, elin qüdrətindən mayalanan milli təfəkkürün yaradıcı potensial təcəssümünü tapmışdır. Məhz buna görə Heydər Əliyevin müstəqillik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar fonunda xüsusi aktuallıqla səslənir.

Ulu Öndər özünün bütün siyasi karyerası boyu xalqımızın müstəqilliyə yetmək istəyini dərindən duymuş və müdafiə etmiş, bu taleyüklü milli problemin məzmun və mahiyyətinə dərindən nüfuz etmiş, həmin amalı özünün fəaliyyət kredosuna çevirmişdir. O, istər dərin məzmunlu çıxışlarında, istərsə də xalqla keçirdiyi görüşlərdə səsləndirdiyi ideyalarla müstəqillik konsepsiyasının nəzəri-praktiki əsaslarını yaratmışdır. Bu konsepsiyada milli dövlətçilik ideyaları ilə həmin ideyaları həyata keçirən müdrik siyasətin obrazının dialektik vəhdətini görürük. Məhz bu məqamda, istər sovet imperiyasının ağır repressiya maşının tam gücü ilə işlədiyi dövrdə, istərsə nisbi sabitlik və sülhün hakim olduğu vaxtlarda və nəhayət yeni ictimai-siyasi, iqtisadi epoxa ilə şərtlənən mürəkkəb müstəqillik illərində doğma xalqına xidmətin ən müxtəlif forma və metodlarını müəyyənləşdirən, tapıb üzə çıxaran Heydər Əliyev özünün zamana qalib gələn qüdrətli şəxsiyyəti ilə tarix səhnəsində olduqca əzəmətli görünür.

Azərbaycanın 1960-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixinin otuz dörd illik bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. O, Vətəndaş, Şəxsiyyət, Lider kimi bütün bu illərdə Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Bu illər ərzində Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır.

Məlum olduğu kimi,insan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyası bu gün dünyada ictimai inkişaf prosesinə istiqamət verən mühüm ideyalardan biridir. İnsan hüquqları ciddi elmi araşdırmaların predimetinə, daxili siyasətlə bağlı qızğın müzakirə və mübahisələrin mövzusuna, əksər ölkərin Konstitusiyasının ana xəttinə, sülh və əməkdaşlıq haqqında beynəlxalq sazişlərin başlıca məğzinə çevrilmişdir. Dünyanın əksər ölkələrində insan haqları insanın mövcudluğunun və milli inkişafın ən vacib şərti kimi qəbul olunur. Bununla yanaşı, insan hüquqları ideyasının həyata keçirilməsi hələ də bir çox anlaşılmazlıqların, ziddiyyətlərin, ölkədaxili və beynəlxalq gərginliklərin mənbəyi olaraq qalır.



*Siyavuş Novruzov,*
*Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini*

Bütün digər sahələrdə olduğu kimi, Azərbaycanda da insan hüquqları sahəsində islahatların aparılması, zəruri hüquqi bazanın və institusional əsasların formalaşması məhz Ümummilli Lidermiz Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra baş vermişdir. Ən əsası isə Ulu Öndər dövlətçiliyimiz təhdid edən təhlükəli tendensiyaları aradan qaldırdıqdan, müstəqil Azərbaycanın ideoloji-iqtisadi əsaslarını (Azərbaycançılıq ideologiyası və "Əsrin müqaviləsi") möhkəmləndirdikdən az sonra müəllifi olduğu 1995-ci il Konstitusiyasında insan hüquq və azadlıqlarını təsbit etdi və hüquqi təminat altına aldı. Beləliklə, olduqca qısa zaman kəsiyində müdrik rəhbərimizin dəmir məntiqi, silinməz dəsti xəttinin, zəngin həya təcrübəsi və işıqlı zəkasının ən böyük əsəri olan, dünyn standarlarının tələblərinə tam dolğunluğu ilə cavab verən Konstitusiya layihəsi hazırlanaraq ümumxalq səsverməsinə təqdim olundu. Həmin sənəd 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi- referendum yolu ilə qəbul olundu. Bu gün Əsas qanunu iftixar hissi ilə xalqımız haqlı olaraq "Heydər Əliyev konstitusiyası" adlandırır, eyni zamanda onu Heydər Əliyevin siyasi yaradıcılığının şah əsəri hesab edir. Bu, xalqın rəhbərinə olan sonsuz və ülvi məhəbbətin ifadəsi, konstitusiyanın hazırlanmasında, müzakirəsində və qəbul edilməsində yorulmaz fəaliyyətinə verdiyi halal qiymətdir.

Siyasi sistem özündə müxtəlif profilli komponentləri cəmləşdirən çoxfunksiyalı strukturdur və bu sistemin hər bir komponenti özünün xüsusi strukturuna və ifadə xüsusiyyətlərinə malikdir. Belə çox funksiyalı strukturu təşkili edən ayrı-ayrı komponentlərin (institusional, funksional, requlyativ, kommunikativ, ideoloji profilli kompanentlər) formalaşmasında Heydər Əliyev fenomeninin rolunu bir məqalə çərçivəsində şərh etmək çox çətindir. Lakin danılmaz həqiqətdir ki,Azərbaycanda siyasi sistemin təşəkkül tapmasında məhz onun müstəsna xidməti vardır. Belə ki,onun 30 ildən artıq bir müddətdə Azərbaycanda siyasi hakimiyyətin başında olması faktının özü çağdaş Azərbaycanın siyasi sisteminin formalaşmasında Heydər Əliyev fenomeninin hansı rolu malik olmasını aydın şəkildə göstərir. Çünki məhz siyasi hakimiyyət siyasi sistemin elementlərinin təmərküzləşməsi və formalaşması baxımından ən vacib amildir. Siyasi sistemdə cəmiyyətin həyatının bütün yönləri - cəmiyyətin mövcudluğunun iqtisadi şərtləri, cəmiyyətin sosial və milli strukturu, ictimai şüurun vəziyyəti və səviyyəsi, mədəniyyət və s. — öz əksini tapır. Məhz siyasi sistem vasitəsilə cəmiyyətin əsas maraqları, sosial prioritetlər müəyyənləşdirilir ki, sonralar onlar siyasətdə möhkəmlənir.

XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. İnkişaf səviyyələrində, din və mədəniyyətlərində, tarixi ənənələrində mövcud olan fərqlərə baxmayaraq, qlobal proseslər dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər xalqların və bütövlükdə sivilizasiyanın taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır. Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu, möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi daxili və xarici siyasət bu günkü qlobal reallığın və fundamental tendensiyaların mükəmməl dərkinə əsaslanır və hazırki planetar miqyaslı konyuktur dəyişikliklərə tamamilə cavab verir.

Müasir dövrdə ictimai həyatın bütün sahələri kimi, mədəniyyətlər də getdikcə qloballaşmaya məruz qalır, fərqli sivilizasiyaların Hantinqtonun deyimi ilə sadəcə "qarşıdurması" deyil, həm də inteqrasiyası baş verir. Bu prosesdən təcrid olunmaq, öz milli məhdudluğuna qapanıb qalmaq qeyri-mümkündür. Qloballaşmanın gedişi, təbii ki, sivilizasiyaların taleyindən yan keçə bilməz. Belə ki, qloballaşan sosio-mədəni məkanda ölkələrin və sivilizasiyaların qarşılıqlı asılılığı daha da artır, miqrasiya prosesinin genişlənməsi ilə onların bir-birinə yaxınlaşması daha da intensiv səciyyə daşımağa başlayır, digər tərəfdən isə xalqların sivilizasion özünüdərk prosesi geniş vüsət alır, milli və dini zəmində ziddiyyətlər ortaya çıxır. Təbii ki, belə bir ortamda hər bir sivil dövlət qloballaşmanın ortaya çıxardığı ziddiyyətlərdən və fəsadlardan qaçaraq, bu axını xalqların iqtisadi, mədəni həyatının inkişafı üçün bir üstünlüyə çevirməlidir. Məhz bu amili nəzərə alaraq Ulu Öndər Heydər Əliyev uzaqgörənliklə demişdir ki, "Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb, heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Bu zəruri axın dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir". Beləliklə Ümummilli Liderin Azərbaycan dövlətçiliyinin təməlinə yerləşdirdiyi azərbaycançılıq ideologiyasının birləşdirici və ehtivaedici xarakterinin aktuallığı günümüzdə daha artıq önəm və əhəmiyyət qazanır.

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıqoymaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur. Bu baxımdan əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və hazırda möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən multikulturalizmin Azərbaycan modeli sınanmış və optimal variant kimi qarşımıza çıxır.

Ulu Öndər Heydər Əliyev bununla ilk növbədə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq" deyən Ulu Öndər bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi.

Azərbaycanın ən yeni tarixi şəxsiyyətin və liderin ictimai-dövlət həyatındakı rolunun əsrlər dəyişdikcə nəinki azalmadığı, hətta effektiv çalarlar qazanaraq praqmatik məzmun və mahiyyət kəsb etdiyini bir daha təsdiqləyir.Təbii ki, politoloji anlamda lider dediyimiz şəxs tarixi inkişafın obyektiv qanunauyğunluqlarını dərindən dərk edən, cəmiyyətin dinamik güclərini vahid ideya ətrafında səfərbər edərək, addımaddım hədəfə çatmağa bacaran, strateji və proqressiv düşüncə tərzinə malik rəhbər modelini ehtiva edir. Belə rəhbərin fəaliyyəti möhkəm sosial-iqtisadi və ideoliji bazaya, elektoratın sonsuz inamına söykənən bir sistemə malikdirsə və bütün bu komponentlərin məcmusu yeni və qüdrətli liderə transfarmasiya edirsə, daha əzəmətli və uzunömürlü olur. Ümummilli liderimiz heydər Əliyevin layiqli varisi, möhtərəm Prezidentimiz İlham Əliyevin timsalında xalqımız öz taleyində məhz belə uğurlu fenomenə şahidlik etməkdədir.

Əsrimizin ilk prezident seçkilərində xalqımızın iradəsinə arxalanan, siyasətini milli maraqlarımızın tam tamın olunması üzərində quran, Ümummilli liderimiz heydər Əliyevin müəyyənləşdirdiyi dinamik inkişaf strategiyasını rəhbər tutan və regionda çoxböyük nüfuza malik olan İlham Əliyevin dövlətimizin başçısı seçilməsi ilə müasir tariximizdə keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyulub. Bütün sahələrdə köklü dəyişikliklə, xalqın rifah halının daim yaxşılaşdırılması Azərbaycanın dünyadakı rolunun yüksəlməsi ilə müşaiyət olunan bu mərhələl daxili və xarici siyasi kursumuzda möhtəşəm uğurlarla, nəhəng abadliq və quruculuq işləri və dünyada bənzəri olmayan sıçrayişli iqtisadi inkişafla tariximizə qızıl hərflərlə yazılmaqdadır.

# Milli Məclisin növbədənkənar plenar iclası keçirilib

***İyunun 13-də Milli Məclisin növbədənkənar plenar iclası keçirilib. Parlamentin sədri Oqtay Əsədov iyunun 13-də və 14-də keçiriləcək plenar iclasın gündəliyinə 36 məsələnin daxil olduğunu bildirib. Əvvəlcə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsini və "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib. Qeyd edilib ki, təklif edilən dəyişikliklər "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun və "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1336-VQD nömrəli Qanununun icrası ilə ələqədardır. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.***



İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri Ziyad Səmədzadə "Hesablama Palatası haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirib ki, təklif olunan dəyişiklik "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununa uyğunlaşdırma məqsədi daşıyır. Qeyd olunan Qanuna əsasən dövlət büdcəsi zərfinə daxil olan sənədlərin və məlumatların dairəsinin genişləndirilməsi nəzərdə tutulur ki, bu məlumatların biri də Vergi Məcəlləsində nəzərdə tutulmuş güzəşt və azadolmalar barədə məlumatlardır. Bu isə azadolma və güzəştlərin həcmi, effektivliyi, onun məbləği barədə qiymətləndirmələrə imkan verəcək. Eyni zamanda, 8.0.13-cü maddənin ləğvi nəzərdə tutulur ki, bu da Hesablama Palatasının inzibati xətalar haqqında işlərə baxmaq və inzibati tənbeh tətbiq etmək üçün hüququnu aradan qaldırır. Sənəd üçüncü oxunuşda səsə qoyularaq təsdiqlənib.

İclasda, həmçinin "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Dövlət rüsumu haqqında", "Yol hərəkəti haqqında", "Milli arxiv fondu haqqında", "Avtomobil yolları haqqında" və "Mədəniyyət haqqında" qanunlarda , Əmək, İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələri üçüncü oxunuşda müzakirə olunaraq qəbul edilib.

Komitə sədri Ziyad Səmədzadə "Qiymətli kağızlar bazarı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, qanun layihəsi mərkəzi depozitarın xidmət haqlarının müəyyən edilməsi sahəsində qurumların səlahiyyətlərini dəqiqləşdirir. Təklif olunan qaydaya görə, bu haqlar mərkəzi depozitarın müşahidə şurasının təklifləri əsasında maliyyə bazarlarına nəzarət orqanı tərəfindən və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla müəyyən ediləcək. Qanun layihəsi səsvermə yolu ilə qəbul edilib.

Sonra "Banklar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunub. Qeyd edilib ki, qanun layihəsi maliyyə bazarlarına nəzarət orqanına ödənilən haqların xarici bankların yerli filiallarına da şamil olunmasını nəzərdə tutur. Sənəd səsə qoyularaq təsdiqlənib.

Komitə sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirib ki, dəyişiklik maliyyə bazarlarına nəzarət orqanına haqların ödənilməməsinə görə inzibati cərimə növündə inzibati tənbeh tədbirinin tətbiq edilməsi məqsədilə təklif edilir. Maliyyə Bazarlarına Nəzarət Palatasına maliyyə bazarlarında nəzarət edilən subyektlər tərəfindən ödənilən haqların məbləği və ödənilmə qaydası həmin Palatanın 2017-ci il 5 aprel tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalar ilə müəyyən olunur. Qanun layihəsi səsə qoyularaq təsdiqlənib.

Regional məsələlər komitəsinin sədri Eldar İbrahimov "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda təqdim edib. Qeyd olunub ki, qanun layihəsi dəqiqləşdirmə xarakteri daşıyır. Qanun layihəsi səsə qoyularaq qəbul edilib. Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ikinci oxunuşda müzakirə olunub. Bildirilib ki, dəyişiklik "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1433-VQD nömrəli Qanununun tətbiqi ilə ələqədar təklif edilir. Qanun layihəsi səsvermə yolu isə təsdiq olunub.

İclasda "Dövlət rüsumu haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də ikinci oxunuşda müzakirə edilərək təsdiqlənib.

Komitə sədri Eldar İbrahimov "Aqrar sığorta haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edib. Bildirib ki, 4 fəsil 21 maddədən ibarət olan qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 27-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında aqrar sahədə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Qanun layihəsi səsə qoyularaq qəbul edilib. Komitə sədri Ziyad Səmədzadə "Sığorta fəaliyyəti haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini ikinci oxunuşda təqdim edib. Bildirib ki, təklif olunan dəyişikliklər "Aqrar sığorta haqqında" qanun layihəsinin icrası məqsədilə hazırlanıb. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

Daha sonra Vergi və İnzibati Xətalar məcəllələrində, "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, "Büdcə sistemi haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda müzakirə olunub. Diqqətə çatdırılıb ki, qanun layihələri "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib. İclasda, həmçinin Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında", "Kredit ittifaqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda müzakirə olunaraq təsdiqlənib.

Komitə sədri Əli Hüseynli "Məhkəmələr və hakimlər haqqında" Qanunda, Mülki Prosessual, Cinayət-Prosessual, İnzibati Prosessual məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələrini müzakirəyə təqdim edib. Bildirib ki, layihələr Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanın icrası ilə əlaqədar hazırlanıb. Belə ki, həmin Fərmanın 3.1-ci bəndi sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə ələqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması barədə normativ hüquqi aktların layihələrinin hazırlanmasını nəzərdə tutur. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib. Bununla da Milli Məclisin növbədənkənar plenar iclası sona çatıb.

***Rəfiqə Kamalqızı***

## Heydər Əliyev Fondu tərəfindən Qarabağ müharibəsi əlili üçün yeni ev tikilib





***Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Ucar rayonunun ən iri yaşayış məntəqəsi olan Qaracallıda kənd sakini, ikinci qrup Qarabağ müharibəsi əlili Şöhrət Qasımov üçün fərdi evin tikintisi başa çatıb. AZƏRTAC-ın bölgə müxbiri Qaracallı kəndində olub, Şöhrət Qasımovun ailəsinə baş çəkib. 1978-ci ildə anadan olan Şöhrət Qasımov ailənin ən böyük övladıdır. Üç qardaş, bir bacıdırlar. Hərbi xidmətdə olarkən 1998-ci il iyulun 18-də Füzuli rayonunun Əbdürəhman kəndində ermənilərin qəfil hücumuna məruz qalıblar. Gərgin keçən atışmada bir ayağının dizdən aşağı hissəsini itirib.***

Yeni evin sevincini yaşayan Şöhrət Qasımov Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirərək deyib: "Mənzil şəraitimiz çox pis idi. Mehriban xanıma müraciət ünvanladım. Çox sağ olsun, müraciətimə dərhal cavab verildi və qısa vaxtda gözəl ev tikildi. İndi burada həyat yoldaşım və 2 övladımla - Azərbaycanın gələcək əsgərləri ilə rahat yaşayırıq. Bu rahatlığı bizə bəxş edən Heydər Əliyev Fonduna, fondun prezidenti Mehriban Əliyevaya çox-çox minnətdaram".

Ölkəmizdə əlillərə xüsusi diqqət və qayğı göstərildiyini deyən Qarabağ müharibəsinin əlili Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın erməni qəsbkarlardan azad ediləcəyi günü səbirsizliklə gözləyir.

Qeyd edək ki, həyat yoldaşı və 2 övladı ilə ağır mənzil şəraitində yaşayan Şöhrət Qasımov bir müddət öncə Heydər Əliyev Fondunun "Regional inkişaf" İctimai Birliyinə müraciət ünvanlayıb. Müraciətdən sonra bu ilin fevralında əraziyə baxış keçirilib və yeni evin layihəsi hazırlanıb. Fondun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə tezliklə tikinti işlərinə başlanıb və Qarabağ əlilinə məxsus həyətyanı sahədə 4 aya üç otaqlı, tam təmirli, mətbəx mebeli ilə təchiz olunan, su çəni və suqızdırıcı avadanlıq qoyulan fərdi ev inşa edilərək, ailəyə təhvil verilib.

# 5100 metr uzunluğunda dövlət bayrağı ilə sərhədçi yürüşü









***Azərbaycan sərhədçiləri 15 iyun - Milli Qurtuluş Gününün 26-cı ildönümünü ənənəvi olaraq yüksək səviyyədə qeyd edirlər.***

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, qurum tərəfindən bu münasibətlə "Vətənə xidmət-andımız, amalımızdır!" şüarı ilə möhtəşəm bayraq yürüşü təşkil edilib. Dövlət müstəqilliyimizin rəmzi və hər bir azərbaycanlının qürur mənbəyi olan, 5100 metr uzunluğundakı dövlət bayrağımızı irəlidə generallar və zabitlər olmaqla 5 min nəfərlik heyət çiyinləri üzərində daşıyıb.














Yürüş iştirakçılarının önündə gedən Qarabağ atlarının üzərindəki sərhədçi süvarilər müqəddəs dövlət bayrağımızı başları üzərində ucaldıblar. Yürüş boyu yerləşdirilmiş zirehli döyüş texnikalarında dövlət bayrağının dalğalandırılması, bayrağımızdakı səkkiz guşəli ulduzu tərənnüm edən səkkiz helikopterin qrup halında uçuşları tədbiri daha da möhtəşəm edib.

Bu bayraq yürüşü ilə Azərbaycan sərhədçiləri dahi öndər Heydər Əliyevin uca xatirəsinə və milli dövlətçilik ənənələrinə sadiqliklərini, Azərbaycan Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı ilə xidmət etmək şərəfinin yaratdığı qürur və iftixar hisslərini nümayiş etdiriblər.

Tədbirdə çıxış edən DSX-nin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycan xalqının Milli Qurtuluş Gününün 26-cı ildönümü münasibətilə şəxsi heyəti təbrik edib. Xidmət rəisi 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin qısa zamanda ölkədə sabitliyi bərpa etməsini, tənəzzülün qarşısını alaraq dövlətçiliyimizi qorumasını, müstəqilliyimizin əbədiliyini və dönməzliyini təmin etməsini böyük qürur hissi ilə vurğulayıb.

Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində keçirilən "Vətənə xidmət-andımız, amalımızdır!" şüarı altında möhtəşəm bayraq yürüşü Azərbaycan Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı ilə torpaqlarımızı azad etməyə, işğal altındakı dövlət sərhədlərini mühafizəyə götürməyə və bütün dövlət sərhədlərimiz boyu şanlı dövlət bayrağımızı ucaltmağa sərhədçi əzminin ifadəsi olub.

Bu bayram gününün təntənəsini sərhədçilərlə birgə yaşayan hərbi qulluqçuların ailə üzvləri sərhədçilərin əzəmətli bayraq yürüşünü böyük ruh yüksəkliyi ilə qarşılayıblar. DSX-nin nümunəvi hərbi orkestrinin, rəqs ansamblının, "Nur" vokal-instrumental qrupunun kollektivləri bayram gününə və bayraq yürüşünə həsr olunmuş konsert proqramı ilə şəxsi heyət qarşısında çıxış ediblər.

# Müasir müstəqil Azərbaycan məhz Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir

## Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanovun yap.org.az-a müsahibəsi

***- Əhliman müəllim, 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə gələrək xilaskarlıq missiyasını yerinə yetirməsi xalqımız tərəfindən dövlətimizin qurtuluşu kimi qeyd olunur. Sizcə, 15 İyun Milli Qurtuluş Gününün tariximizdə əhəmiyyəti nədən ibarətdir?***

- Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də yenidən Azərbaycana rəhbərliyə qayıdışından sonra Azərbaycanda inkişafın yeni mərhələsi başlandı. XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarının 20 faizini işğal etdikdən sonra bütün sahələrdə tənəzzül yaranmışdı. İllərlə Ulu Öndər tərəfindən çətinliklə yaradılanlar, başımsızlıq üzündən asanlıqla dağıdılırdı. Xoşbəxtlikdən bu uzun sürmədi və Ulu Öndərin yenidən hakimiyyətə gəlişi pərakəndəliyin, dağıntıların qarşısını aldı. Həmin dövr üçün Azərbaycan cəmiyyətindəki anarxist qüvvələrin zərərsizləşdirilməsindən sonra Ulu Öndər siyasi, hüquqi, iqtisadi, sosial sahədə demokratik islahatlar proqramının həyata keçirilməsinə start verdi.

Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində görülən işlərdən biri kimi dövlət quruculuğunun hüquqi bazasının yaradılması idi. 1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoydu. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişafı kimi seçdi. Ulu Öndərin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu sənəd, müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə yazıldı.1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Heydər Əliyevin böyük şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görür və buna xidmət edən bütün zəruri tədbirləri həyata keçirirdi. Onun gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı.

***- Sizcə, qurtuluş məfkurəsi Azərbaycan xalqına və dövlətinə nə verdi?***

- Müasir müstəqil Azərbaycan dövlətinin hazırki inkişaf mərhələsinə çatmasında bir çox amillər müstəsna rol oynamışdır. Bu sırada şəxsiyyət-lider amili mühüm yer tutur. Şübhəsiz ki, Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutması, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi



şəxsiyyət, Ulu Öndər Heydər Əliyev olmuşdur. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan Ulu Öndər xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurub, mütərəqqi ənənələr əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürübdür. Ümummilli Lider qlobal proseslər fonunda tam fərqli - xalqın demokratik idealları, milli dövlətçilik təfəkkürü ilə uzlaşan, hər bir mərhələ üçün konkret fəaliyyət prioritetləri, taktiki və strateji məqsədləri olan milli inkişaf strategiyasını irəli sürərək uğurla həyata keçiribdir. Ümummilli Lider 1993-cü ildən dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə misilsiz xidmətlər göstəribdir.

Ümummilli Liderin şəxsiyyət kimi böyüklüyü həm də Onun bütün idarəçiliyi boyu azərbaycanlı olması ilə fəxr edib qürur duymasında, xalqın milli mənlik şüurunu, özünüdərk hissini, mənəvi dəyərlərə bağlılığını gücləndirmək əzmini nümayiş etdirməsində idi. Heydər Əliyevin bütün zəngin və mənalı ömrü Azərbaycan üçün yaşanıb, bu dahi şəxsiyyət həyatını Azərbaycanı və azərbaycançılığı dünyaya tanıtmağa sərf edibdir. Ümumilikdə, Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın israrlı tələbi ilə hakimiyyətə gəldikdən sonra sabitlik və təhlükəsizlik təmin edildi, bütün sahələrdə böhran və tənəzzülün qarşısı alındı, ölkə tərəqqi yoluna qədəm qoydu. Bugünkü müasir müstəqil Azərbaycan məhz Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir.

***- Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının bu günkü nəticələri haqqında fikirlərinizi bilmək istərdik. Heydər Əliyev siyasətinin müasir Azərbaycan dövlətiüçün əhəmiyyəti nədən ibarətdir?***

- Müstəqil Azərbaycanın qurucusu və yaradıcısı, təşkilatçısı və aparıcı qüvvəsi olan Heydər Əliyev ideyaları ölkəmizin bütün sahələrində, o cümlədən ictimai və iqtisadi-siyasi, milli-ənənəvi və mədəni-kütləvi, elmi-maarifləndirici və sosial-müdafiə sahələrində əsaslı dönüş yaranmasının başlıca istiqamətverici qüvvəsi kimi öz xoşməramlı avanqardlığını hər zaman saxlamaqdadır. XXI əsrin başlanğıcında Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vuraraq, yeni dinamik inkişaf mərhələsinə qədəm qoyması məhz Ulu Öndər, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin xalqın rəyinə əsaslanmaqla ilk təməl daşlarını qoyduğu uzaqgörən siyasətin, dərin islahatlar strategiyasının nəticəsidir.

Dövlətçiliyin mükəmməl təməl prinsiplərini yaradan Heydər Əliyev idarəçilikdə uğurlu daxili və xarici siyasət yeridib, dünyanın güc sahibliyi ilə fərqlənən dövlətlərini Azərbaycanla hesablaşmaq, onun konsepsiyasına hörmətlə yanaşmaq faktı qarşısında qoyubdur. Yeni dünya sistemində meydan sulamaq cəhdində olan güc mərkəzləri arasında gedən çəkişmələrin pərdəarxası mahiyyətinə müvafiq şəkildə məntiqli xarici siyasət həyata keçirən müstəqil Azərbaycan Respublikası Cənubi Qafqazda lider dövlətə çevrildi, ölkəmizin regionda icra edilən bütün transmilli layihələrdə iştirakı təmin olundu. Azərbaycanın Heydər Əliyev siyasi kursuna əsaslanmaqla həyata keçirdiyi daxili siyasət də ümumən bu prinsiplərə əsaslanıb, respublikanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpası, beynəlxalq münasibətlər sistemində layiqli mövqeyinin təmin olunması, ikitərəfli əlaqələrdə bərabərhüquqlu tərəfdaş kimi çıxış etməsi milli diplomatiyanın əsas hədəflərinə çevrilibdir. Respublikamız ötən illərdə təkcə səmərəli iqtisadi təşəbbüslərlə, konkret enerji-kommunikasiya layihələri, əlverişli tranzit-kommunikasiya imkanları ilə deyil, eyni zamanda demokratikləşmə xəttinə, Avroatlantik məkana inteqrasiya kursuna sadiqliyi ilə də Qərbin diqqətini cəlb edib, Avropa məkanında etibarlı tərəfdaş imici qazanıbdır. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası baxımından hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu siyasətini də diqqət mərkəzində saxlayan Ulu Öndər bu istiqamətdə mühüm islahatların həyata keçirilməsini təmin edibdir.

***- Əhliman müəllim, 1993-cü ildə Azərbaycanı məhv olmaq təhlükəsi ilə üz-üzə qoyan qüvvələr yenə də hakimiyyət iddiasındadırlar. Buna münasibətiniz necədir?***

- Azərbaycan dövlətçiliyinə qarşı olanlar bilməlidirlər ki, daha 20-30 il əvvəl deyil. Xalqımız hər şeyi gözəl bilir, pafoslu, bəlağətli çıxışlarla onu aldatmaq zamanı geridə qalıb. Bu gün ölkə başçısı İlham Əliyev Azərbaycanda demokratiyanın inkişafı üçün böyük işlər görür. Mən bir şeyi bilirəm ki, demokratik ölkədə hakimiyyətə gəlməyin yalnız bir yolu var. Mitinqlərlə, küçə yürüşləri ilə hakimiyyətə gəlmək mümkün deyil. Ölkəmizdə obyektiv, demokratik, beynəlxalq hüquq normalarına cavab verən seçkilər keçirilir. Hakimiyyətə gəlmək istəyirsən, gəl seçkilərdə iştirak et. Prezident seçkilərindən heç bir il keçmədən müxtəlif fikirlər səsləndirməyə başlayırlar. Parlament seçkilərinə hələ bir ildən çox vaxt var, deyirlər seçkilər indi keçirilsin. Niyə? Xalqımız Heydər Əliyev siyasi kursunu və Prezident İlham Əliyev siyasətini dəstəkləyir və onlarla bir yerdədir. Dövlətimiz etibarlı əllərdədir!

# MİLLİ QURTULUŞ - UĞUR VƏ ZƏFƏRLƏRƏ DOĞRU

## "Modern, Ailə və İnkişaf" 15 İyun Qurtuluş Günü ilə bağlı tədbir keçirib

***Dünən "Bakı Biznes" Mərkəzində "Modern, Ailə və İnkişaf" qeyri hökumət təşkilatının təşkilatçılığı ilə "Milli Qurtuluş - uğur və zəfərlərə doğru" mövzusunda geniş tədbir keçirilib.***



Tədbirdə "Modern, Ailə və İnkişaf" qeyri hökumət təşkilatının sədri, YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü Zərifə Quliyeva geniş məruzə ilə çıxış edərək tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun gününün, sadəcə, təqvim bayramı deyil, böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malik bir gün olduğunu vurğulayıb: "Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayidişı xalqımızın ço-



xəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. 1993-cü il 15 iyununda Azərbaycan Respublikası Ali Sovetində keçirilən səsvermədə Ümummilli Lider Heydər Əliyev Sədr seçildi. Bununla da, Azərbaycanda yeni erənin başlanğıcı qoyuldu. Ulu Öndər Heydər Əliyev dağılmaqda olan, parçalanan, yox olmaq təhlükəsinin bir addımlığında dayanan Azərbaycanın iqtisadi və siyasi müstəqilliyini təmin etmiş, dünyada söz və nüfuz sahibi, dinamik, inkişaf edən bir ölkəyə çevirdi".

Z.Quliyeva onu da bildirib ki, görülən böyük, nəhəng işlərin nəticəsində, Azərbaycan 2000-ci ildən özünün uğurlu iqtisadi inkişafına qədəm qoydu və Onun siyasətini uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev, məhz Azərbaycanı Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu strategiya əsasında quraraq, ölkəni böyük iqtisadi naliyyətlər əldə etmiş respublikaya çevirmişdir: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Ulu Öndər Heydər Əliyevin siyasəti Azərbaycanın hərtərəfli inkişafına indi də xidmət etməkdədir. Bu gün Prezident İlham Əliyevin xarici siyasətdə əldə etdiyi bütün uğurlar Onun şəxsi müdrikliyi və diplomatik bacarığı ilə bərabər, eyni zamanda, Ümummilli Lider Heydər Əliyevin vaxtilə yaratdığı inkişaf strategiyasına söykənir. Bir sözlə, məhz Ümummilli Liderimizin görmək istədiyi Azərbaycan bu günün reallığına çevrilib. Bu yol Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu yolla gedən Azərbaycan durmadan yüksəlir, inkişaf edir, uğurlar qazanır. Heydər Əliyevin özü vaxtilə müdrikcəsinə demişdir: "Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz. Bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz. Bu inam, bu qətiyyət Milli Qurtuluş Gününün mənası və verdiyi ibrət dərsləridir. Bu, onu göstərir ki, nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq, Onun ideya və əməlləri yaşayacaq, bizi daim doğru yolla, irəliyə aparacaqdır".

Tədbirdə millət vəkili Elmira Axundova, Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədrinin müavini, YAP Siyasi Şurasının üzvü Sədaqət Qəhrəmanova, YAP Siyasi Şurasının üzvü, professor İradə Hüseynova və başqaları çıxış edərək, 15 İyun Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, Ulu Öndər Heydər Əliyevin Vətəni və xalqı qarşısında əvəzolunmaz xidmətlərindən danışıb və Prezident İlham Əliyevin Ümummilli Liderin siyasi xəttini layiqincə davam etdirdiyini diqqətə çatdırıblar.

Tədbir bədii hissə ilə sona çatıb.

**RƏFİQƏ HÜSEYNOVA**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

14 iyun 2019-cu il

# Dahi xilaskar, unudulmaz Lider!

## *Ümummilli Lider Heydər Əliyev: "Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm"*

***Dünyanın inkişaf etmiş dövlətlərinin, tarixi təcrübəsi də sübut edir ki, hər bir xalqın və millətin tərəqqisində onun siyasi liderləri mühüm rol oynayır. Yəni tarixi proseslərdə şəxsiyyətlərin xidmətləri böyük əhəmiyyət kəsb edir və buna görə də, "Şəxsiyyətlər tarix yaradır" ifadəsi əbəs yerə deyilmir.***

Tarix 20-ci əsrdə Azərbaycan xalqına Ulu Öndər Heydər Əliyevin timsalında, dahi bir rəhbər və müdrik dövlət xadimini bəxş etdi. Ölkəmiz 1991-ci ildə yenidən müstəqilliyini bərpa edəndə, Azərbaycanda, sözün həqiqi mənasında, belə güclü liderə ehtiyac yaranmışdı. Gənc müstəqil



**Fərrux HAQVERDİYEV, YAP Xızı rayon təşkilatının sədri**

dövləti daxili və xarici qüvvələrin təhdidlərindən qorumaq və qısa vaxtda dövlətçiliyin dayaqlarını möhkəmləndirmək üçün xalqımız, 1993-cü ildə haqlı olaraq, müdrik dövlət xadiminə üz tutdu və Onun timsalında həqiqi xilaskarını tapdı. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasında çalışan Ulu Öndər yaxşı bilirdi ki, Onun Azərbaycan rəhbərliyinə qayıdışını istəməyən böyük qüvvələr var. Hətta Onun fiziki məhv edilməsi də reallıq idi. Amma Ulu Öndər Heydər Əliyev bu təhlükələrə baxmadan, xalqına dar gündə kömək etmək qərarına gəldi və tərəddüd etmədən 1993-cü ilin iyununda Bakıya qayıtdı. O, yaxşı bilirdi ki, milyonlarla insanın ümidli baxışları Ona dikilib və müstəqilliyini qurbanlar hesabına qazanan bir xalq dövlətçiliyin sükanı arxasında, məhz UHeydər Əliyev kimi təcrübəli və qətiyyətli siyasi lideri görmək arzusundadır.

"Mən ömrümün qalan hissəsini də bundan sonra xalqıma həsr edəcəyəm" deyən dahi rəhbər siyasi hakimiyyətə qayıdışından dərhal sonra müstəqilliyimizin qorunub-möhkəmləndirilməsi üçün ən vacib tədbirlərə əl atdı. Mühüm siyasi-iqtisadi islahatlara başlandı və müstəqil dövlətçiliyin inkişafına maneçilik törədən daxili və xarici qüvvələrə qarşı kəskin mübarizə aparıldı. Çünki cəmiyyəti, sağlam qüvvələr hesabına möhkəmləndirmədən, islahatları həyata keçirmək mümkün deyildi. 1994-1995-ci illərdə baş verən dövlət çevrilişi cəhdlərinin qətiyyətlə dəf edilməsi bir həqiqəti




sübuta yetirdi ki, Azərbaycan xalqı öz siyasi liderinin ətrafında sıx birləşib. Ziyalılar, sənət adamları, təsərrüfat işçiləri, sadə insanlar, bir sözlə, hamı Heydər Əliyev dühasına inandı və ümid etdi ki, yalnız belə bir təcrübəli dövlət xadimi müstəqil Azərbaycanı gözlənə bilən bütün təhlükələrdən xilas etməyə qadirdir. Bu gün uğurla fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası da, məhz Ulu Öndərimizin bizlərə qoyduğu siyasi irsin tərkib hissəsidir. Əbəs deyil ki, əldə edilən hər bir uğurlarda YAP-ın da müstəsna rolunun olduğu vurğulanır.

"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunub- saxlanması, daimi və əbədi olması bundan da çətindir" fikrini söyləyən dahi rəhbər, əslində, hələ ötən əsrin 70-80-ci illərində, Azərbaycan Sovet İttifaqının tərkibində olduğu bir zamanda, xalqımızın böyük gələcəyinə hesablanmış islahatlara imza atmışdı. Görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan indiki Hərbi Liseyin, məhz həmin dövrdə yaradılması Ulu Öndər Heydər Əliyevin müdrikliyindən və uzaqgörənliyindən xəbər verdi. Belə bir təhsil müəssisəsinin Azərbaycanda yaradılmasına nail olmaq hər rəhbərə nəsib olan iş deyildi. Yalnız qətiyyətli, riskli addım atmağı bacaran, ən başlıcası isə, xalqı üçün ömrünü şam kimi əridən bir rəhbər belə vacib vəzifənin öhdəsindən gəlməyi bacarardı. Müasir Azərbaycan Ordusunun formalaşmasında və milli zabit kadrların hazırlanmasında həmin təhsil müəssisəsinin müstəsna rolu vardır.

Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışı, həqiqətən də, çox mürəkkəb, çətin bir şəraitə təsadüf etdi. Yəni həmin dönəmdə, müstəqil dövlətçiliyimiz həlledici bir dövrünü yaşayırdı. Amma müdrik rəhbərin vaxtında həyata keçirdiyi strateji inkişaf strategiyası müstəqil dövlətçiliyimizin qorunub-möhkəmlənməsində müstəsna rol oynadı. Bu strateji xəttin əsas istiqamətlərindən biri də vahid komandanlıqdan idarə edilən nizami ordunun yaradılması idi. Axı müstəqilliyimizin ilk illərində Azərbaycan qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdı, Dağlıq Qarabağ və ona bitişik ərazilər işğal edilmişdi. Belə çətin şəraitdə, döyüşlər getdiyi bir vaxtda, nizami ordunun yaradılması olduqca çətin idi. Amma uzaqgörən siyasətçi, çox qısa vaxt ərzində, bu vəzifənin öhdəsindən layiqincə gəlməyi bacardı. Bu gün fəxrlə deyirik ki, müasir müstəqil Azərbaycan, həmçinin, Silahlı Qüvvələrimiz Ulu Öndər Heydər Əliyev dühasının və Onun misilsiz xidmətlərinin bəhrəsidir.

1993-cü ilin 15 iyun günü tariximizdə Milli Qurtuluş Günü kimi qeyd olunur. Məhz həmin gün ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qədəm qoyan Ulu Öndərimiz öz qayıdışı ilə qurtuluşa nail oldu, Azərbaycan xalqına müasir müstəqil dövlətçiliyimizi yadigar qoydu. Zəngin idarəçilik bacarığı olan dahi dövlət xadimi ölkəmizin bütün sahələrinin inkişaf etdirilməsinə nail oldu, siyasi-iqtisadi münasibətlər sistemində müasir inkişafın bünövrəsini yaratdı. 1994-cü ilin sentyabrında inkişaf etmiş dövlətlərin aparıcı şirkətləri ilə "Əsrin Müqaviləsi" adlanan neft kontraktı imzalandı. Bu hadisə təkcə iqtisadi deyil, həm də siyasi əhəmiyyət kəsb edən mühüm hadisə idi. Belə mühüm müqavilənin imzalanması, bir tərəfdən, ölkədə yaranmış uzunmüddətli ictimai-siyasi sabitliyin göstəricisi idisə, digər tərəfdən, beynəlxalq aləmdə müstəqil dövlətimizin artan nüfuzu demək idi.

Ümummilli Liderin önəm verdiyi bütün məsələlər, yalnız bir məqsədə - gənc müstəqil dövlətin hərtərəfli inkişafının təmin edilməsinə hesablanmışdı. Azərbaycanda, elə bir sahə yox idi ki, diqqətdən kənar qalsın. Aparılan bütün islahatlar xalqın milli düşüncə tərzinin, vahid azərbaycançılıq ideologiyasının inkişafına zəmin yaratdı. Xalqımız öz dahi rəhbərinin ətrafında sıx birləşməklə, möhkəm iradə nümayiş etdirdi və bütün sınaqlardan üzüağ çıxmağı bacardı.

Azərbaycan xalqı xoşbəxtdir ki, bu gün Ulu Öndərin siyasi kursu Onun layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Ən başlıcası, Ulu Öndər Heydər Əliyev irsi, dahi rəhbərin ölməz ideyaları insanların şüuruna möhkəm həkk edilib. Bu gün hər birimiz, yaxşı bilirik ki, Ulu Öndərimizin ideyalarına sadiq olmaqla, müstəqilliyimizin daha da möhkəmlənməsinə dəyərli töhfəmizi əsirgəmirik. Azərbaycan bütün sahələrdə inkişaf edir, beynəlxalq layihələrin iştirakçısıdır, möhkəm siyasi və hüquqi dövlətçilik strategiyasına malikdir.




## Vaşinqtondakı Atlantik Şurada Azərbaycanın xarici siyasətinə həsr olunan tədbir keçirilib

*Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tədbirdə çıxış edib*

ABŞ-ın paytaxtı Vaşinqtonda fəaliyyət göstərən nüfuzlu düşüncə mərkəzlərindən olan Atlantik Şurada Azərbaycanın xarici siyasətinə həsr olunmuş tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent ABŞ-Azərbaycan münasibətləri ilə bağlı çıxış edib. Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Atlantik Şuranın Qlobal Enerji Mərkəzinin təsisçi sədri və ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Morninqstarla müzakirəsi baş tutub. Tədbirdə əsasən Vaşinqtonda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, ictimai-siyasi xadimlər və regionla bağlı araşdırma aparan analitiklər iştirak ediblər. İctimaiyyət üçün açıq olan tədbirdə, həmçinin erməni lobbisinin xeyli sayda nümayəndələri iştirak edib.

Əvvəlcə C.Kent çıxış edərək Azərbaycan-ABŞ əlaqələrinin strateji əhəmiyyəti barədə söhbət açıb. O, Cənubi Qafqazın əhəmiyyətini vurğulayaraq Azərbaycanı vacib tərəfdaş kimi xarakterizə edib və iki ölkə arasında təhlükəsizlik, enerji və iqtisadi inkişafın təmini sahələrində uğurla davam edən əməkdaşlıqdan danışıb. ABŞ rəsmisi son dövrlər iki dövlətin rəsmilərinin səfərlərinin və dialoqunun artmasını münasibətlərin inkişafının göstəricisi kimi vurğulayıb. C.Kent Əfqanıstanda NATO-nun sülhməramlı əməliyyatlarına göstərdiyi əhəmiyyətli dəstəyə görə Azərbaycana ABŞ hökumətinin təşəkkürünü çatdırıb. Həmçinin o, ABŞ-ın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, ölkəsinin ATƏT-in Minsk qrupu çərçivəsində vasitəçilik səylərinə sadiq qaldığını bildirib və münaqişənin tezliklə həllinin regionda sülh və firavanlığın təmininə imkan yaradacağını vurğulayıb. Daha sonra ABŞ-ın Azərbaycanda keçmiş səfiri R.Morninqstar Hikmət Hacıyev ilə bir sıra mövzularda müzakirələr aparıb.

Hikmət Hacıyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda müxtəlif sahələrdə aparılan köklü islahatlar, ölkəmizin sosial-iqtisadi inkişaf modeli, "ASAN xidmət" təcrübəsi və regionun nəqliyyat qovşağına çevrilməsi barədə məlumat verib, Azərbaycan xarici siyasətinin əsasları, onun strateji mövqeyi, region dövlətləri ilə münasibətləri, həyata keçirdiyi və regionun xəritəsini dəyişən enerji və nəqliyyat layihələri barədə danışıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin hazırkı mərhələsinə toxunan Prezident Administrasiyasının rəsmisi Azərbaycan rəhbərliyinin göstərdiyi müdrik və təmkinli yanaşmasına baxmayaraq, Paşinyan hakimiyyətinin münaqişənin həllində ciddi mövqe nümayiş etdirmədiyini, əksinə, bu vaxta kimi vəziyyəti gərginləşdirən bəyanat və addımlarla yadda qaldığını qeyd edib. Bu xüsusda, H.Hacıyev Ermənistanın təmas xəttində Azərbaycan hərbi qulluqçularının ölümü ilə nəticələnən son təxribatları barədə məlumat verib və bu addımların məhz danışıqlar prosesini pozmağa yönəldiyini qeyd edib. Şöbə müdiri Ermənistanın hazırda yaşadığı iqtisadi fəsadları sadalayaraq münaqişənin həllinin, ilk növbədə, Ermənistan üçün faydalar gətirəcəyini, Ermənistanın bu iflasdan çıxmasının yeganə yolunun münaqişənin həllindən keçdiyini, təəssüf ki, hələlik Ermənistanın və erməni diasporunun bunu anlamadığını bildirib. Həmçinin H.Hacıyev Ermənistanın sülh danışıqlarında iştirak etdiyi dövrdə paralel olaraq işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətləri davam etdirdiyini qeyd edib və beynəlxalq ictimaiyyətin bu məqama daha çox diqqət yönəltməsinin vacib olduğunu vurğulayıb.

Sonda Prezident Administrasiyasının rəsmisi auditoriyanın suallarını cavablandırıb. Erməni lobbisinin tədbirdə kütləvi şəkildə iştirak edən nümayəndələri tərəfindən Azərbaycan rəsmisinə təxribatçı suallar ünvanlanıb və H.Hacıyev bu suallara Ermənistanın işğalçı və beynəlxalq hüquq normalarına zidd olan siyasətini ifşa etməklə cavab verib.

# Ermənilər etiraf edirlər və təlaşları altında əzilirlər

## “Armenianreport”: “Günahkar bəllidir, biz onu öz əllərimizlə hakimiyyətə gətirdik”

***“Belə bir təəssürat yaranır ki, ABŞ, ümumiyyətlə, Ermənistanı onları maraqlandıran ölkə kimi görmürlər. Halbuki hər şey belə olmaya da bilərdi”. Bu fikirlər Ermənistanın aparıcı siyasi-ictimai saytı - “armenianreport”da qeyd olunub. Səbəbi isə bəllidir - Ermənistan işğalçılıq siyasətini davam etdirirsə, ölkənin daxilində siyasi-iqtisadi böhran çözülmürsə, hətta Qərbin dəstəyi ilə “məxməri inqilab” adı altında hakimiyyət dəyişdirilirsə, həmin ölkə yerində addımlamaqda davam edəcək, hətta böyük sürətlə geriyə addımlayacaq.***

### “Hara fırlatsaq da, Birləşmiş Ştatlar, həqiqətən də, son zamanlar Azərbaycana yüksək diqqət ayırır”

Bu gün Ermənistanı təlaşlandıran daha bir məsələ Azərbaycanın ordu potensialının güclənməsi və ardıcıl şəkildə, həmçinin, müharibə şəraitinə yaxın hərbi təlimlər keçirməsidir. Xüsusilə, Naxçıvanda qardaş Türkiyə ilə baş tutan hərbi təlimlər işğalçıları özündən çıxarır, onların “ağıllı” hərbi-siyasi analitikləri mümkün olmayan utopik xəyallara dalır, guya Azərbaycanı qorxuda biləcək “analitik proqnozlar” verib, bununla, işlərini bitmiş hesab edirlər. Təbii ki, erməni tərəfi istər hərbi, istər diplomatiya, istər iqtisadi baxımdan Azərbaycandan kifayət qədər geri qalır və bu xüsusda onları təlaşlandıran növbəti məsələ Azərbaycan Prezidentinin xarici məsələlər üzrə köməkçisi Hikmət Hacıyevin ABŞ-a səfəri və həmin səfər çərçivəsində Amerikanın müvafiq dövlət qurumlarında keçirdiyi görüşlər, xüsusilə, erməni lobbisi qarşısında ölkəmizin qətiyyətli mövqeyini ortaya qoymasıdır.

Bu xüsusda adıçəkilən erməni saytının analitik bölümündə yazılır. SİTAT: “...Bütün bunlara baxmayaraq, düşmənin (ermənilər burada Azərbaycanı nəzərdə tuturlar-R.N.) nə etdiyinə, bütünlüklə, etinasız yanaşmaq olmaz. Xüsusilə, diplomatiya xəttində. Bu mənada, xoş olmayan xəbər budur ki, bu günlərdə Azərbaycanın hökumət nümayəndəliyi ABŞ-da olub. Bakı mətbuatının məlumatlarına görə, Azərbaycan Prezidentinin xarici məsələlər üzrə köməkçisi Hikmət Hacıyev bu həftənin əvvəlində ABŞ-ın paytaxtına gedib ki, ölkəsinin hazırkı xarici siyasət təşəbbüsləri barədə daınşsın, Qafqaz regionunda qonşuları və Qərbdəki partnyorları ilə əməkdaşlıq məsələlərindəki planlarını izah etsin. Başqa fərqli vaxtlarda biz Azərbaycan tərəfinin özünü ABŞ-ın partnyoru kimi təqdim etməsi cəhdlərinə gülərdik. Ancaq burada həmin hadisə baş verməyib. Hara fırlatsaq da, Birləşmiş Ştatlar, həqiqətən də, son zamanlar Azərbaycana yüksək diqqət ayırır. Avropa bazarında rus qazına alternativ olacaq Azərbaycan qazından istifadə etmək, həm də gələcəkdə baş verməsi mümkün görünən İranla müharibə üçün...”





Göründüyü kimi, ermənilər nə qədər ağılsız olsalar da, müəyyən dərəcədə bir sıra reallıqları qəbul etmək məcburiyyətində qalırlar və...

### “Bu mümkünlük əldən verildi və baş nazir Nikol Paşinyanın tənqidçilərinin onun diletant olması barədə fikirlərini daha çox səsləndirmələrinə şərait yaratdı”

Onu da etiraf etmək məcburiyyətində qalırlar ki, Ermənistanın istər indiki, istərsə də əvvəlki iqtidarları naşı, uğursuz və ümumiyyətlə, səriştəsizdirlər.

Keçək digər sitata: “Təəssüf ki, bizim ölkənin hazırkı rəhbərliyi şəxsi məsələlərinə, opponentləri ilə razborkalarına o qədər vaxt ayırıblar ki, amerikalıların İranla mümkün və qaçınılmaz müharibəsi məsələsində Ermənistan üçün ən yaxşı mümkünlüyü əldən veriblər. Halbuki səriştəli yanaşma olardısa, bütün güc balanslarını bizim regionda toplamaq mümkünlüyü əldə edilərdi. Lakin bu mümkünlük əldən verildi və baş nazir Nikol Paşinyanın tənqidçilərinin onun diletatnt olması barədə fikirlərini daha çox səsləndirmələrinə şərait yaratdı.”

Yeri gəlmişkən, bildiyimiz kimi, İran Ermənistan üçün yeganə nəfəs borusudur və maraqlısı da budur ki, Ermənistan ABŞ-la yaxınlaşmaq üçün onu ayaqda saxlayan İranın amerikalılar tərəfindən vurulmasına belə razıdır. Bax, burada erməni məkrinin, xəyanətinin növbəti izləri “armenianreport”un sözügedən yazısında açıq-aydın görünür...

Beləliklə, ermənilər xarici diplomatiyada nə qədər zəif və uğursuz olduqlarını etiraf edirlər. Ancaq bu etiraflar tükənmir. Misal üçün, sözügedən təhlildə yazılır: “Olanların təhlilini apararkən, biz etiraflarımızı etməyə məcbur qalırıq. Hikmət Hacıyevin bəyanatından görünür ki, Azərbaycanın Çinlə, ABŞ-la və Avropa İttifaqı ilə yaxşı münasibətləri var...”

### Azərbaycanın ABŞ-la, Çinlə, İsraillə, Rusiya və Belarusla, Qazaxıstanla, Gürcüstanla, Avropa İttifaqı ilə çoxşaxəli münbit diplomatik və hərbi-siyasi əlaqələri Ermənistanın yuxusunu ərşə çəkib

Ermənilər Azərbaycanın bu vasitələrlə Ermənistana basqılarını davam edəcəyini qorxaraq, etiraf edirlər. “Bundan əlavə, Azərbaycan Rusiya, Qazaxıstan və Belarusla da sıx əlaqələr qurmağa nail olub ki, bu ölkələr bizim KTMT-də və Avrasiya İqtisadi İttifaqında müttəfiqlərimizdirlər. Üstəgəl, biz görürük ki, Qəbələdə hazırda nə baş verir. Gürcüstanın müdafiə naziri Levan İzoriya orada özünün azərbaycanlı həmkarı Zakir Həsənovla ikitərəfli görüş keçirib və müdafiə sferasında 2019-cu il üçün ikitərəfli əməkdaşlıq planını imzalayıb. İzoriya Qəbələyə Azərbaycan, Gürcüstan və Türkiyə arasında keçirilən ənənəvi üçtərəfli görüş üçün gedib. Gördüyümüz kimi, Azərbaycan tərəfi bütün istiqamətlərdə fəallıq göstərir. Onu da, unutmuruq ki, Bakı və Tel-Əviv Azərbaycan və İsrail arasında vacib münasibətlər barədə danışmağı xoşlayırlar. Xüsusilə, yeni İsrail silahlarının əldə edilməsi sferasında”.

Azərbaycanın bütün sahələrdə - istər regional, istərsə də beynəlxalq siyasi kontekstlər baxımından, uğurlar əldə etməsi, məhz bu səbəblərdən erməniləri kəskin şəkildə narahat edir. Bu baxımdan, yazırlar ki, onların yeni hakimiyyəti bütün bunların qarşısını almağı bacarmadı. “İsrailə nəhəng təsirlərə malik ABŞ da silah satışına mane olmur” ifadəsini də yazan erməni saytı burada növbəti həyasızlığı şakərini ortaya qoyur. Məsələn, Rusiyanın, Belarusun da Azərbaycana silah satması məsələsindən təlaşlanma göz önündədir.

### “Əgər bu, mövcud hakimiyyətin siyasətinin süqutu deyilsə, bəs nədir?”

Nəticədə, suallar yaranır. Yəni ermənilər özləri-özlərinə və rəhbərliklərinə suallar ünvanlayırlar: “Əgər bu mövcud hakimiyyətin siyasətinin süqutu deyilsə, bəs nədir? Axı Paşinyan, həqiqətən də, bir ildən artıqdır ki, ABŞ-ın dövlət katibi ilə görüşə bilmir. Bizim digər dövlət adamlarımızın səfərləri və onların nəticələri də bizi qəmgin edir və kədərləndirir. Belə təəssürat yaranır ki, ABŞ, ümumiyyətlə, Ermənistanı öz maraqları çərçivəsində görmür”.

### “Görünür, biz Fransanı da itiririk”

Daha bir fakt isə, Fransa məhkəmələrinin qondarma “DQR”lə bağlı qəbul etdikləri qərarlarıdır. SİTAT: “Burada yeni arzuolunmaz hadisələr yaranır. Bu günlərdə fransız hakimləri bir sıra Fransa şəhərlərinin “Artsax” məntəqələri ilə memorandumlarını ləğv edirlər. Bu, Ermənistan üçün çox pis siqnaldır. Görünür biz Fransanı da itiririk. Bu itkilər çox deyilmi? Ən əsası isə, hər kəsə aydındır ki, günahkar kimdir. Bu, o kəsdir ki, onu biz öz əllərimizlə hakimiyyətə gətirmişik”.

Nəticə ortadadır və bu nəticəni düşmən etiraf edir. Qorxur, təlaşlanır və uduzur. Bu etiraf güclü Azərbaycan qarşısında diz çökmək reallığını da tam məntiqi ilə ortaya qoyur!

**Rövşən NURƏDDİNOĞLU**

## Fransanın Qrenobl inzibati məhkəməsi də erməniləri məyus etdi

Fransanın Serji-Pontuaz məhkəməsinin Arnuvilin qondarma Dağlıq Qarabağdakı Şəhər inzibati bölgəsi ilə “Dostluq haqqında xartiya”sını ləğv etməsinin ardınca Qrenobl inzibati məhkəməsi tərəfindən də bənzər qərarın çıxarılması separatçı rejimin beynəlxalq miqyasda tanıdılması cəhdlərinin iflasa uğradını göstərir. SİA xəbər verir ki, bu barədə Fransadakı erməni diasporunun media orqanlarından olan “Nouvelles d'Armenie” saytı məlumat yayıb.

Qeyd olunur ki, qərar eyni zamanda beynəlxalq ictimaiyyətin separatçılıq meyillərini qınamasının növbəti təzahürüdür. Xartiyalar Fransanın xarici siyasət kursuna və beynəlxalq öhdəliklərinə ziddir, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi bu ölkənin bitərəfliyini şübhə altına salırdı. Aydın görünqr ki Azərbaycanın milli maraqlarının qorunması xaricdəki “söyüş” müxalofətinin proqramına daxil deyil. Onlar Azərbaycan dövlətini, hakimiyyət nümayəndələrini təhqir edir, lakin ümummilli məsələlərdə susurlar. Xaricdə yaşayan və milli mənafelərdən danışan şəxslərin belə məsələlərdə susqunluq nümayiş etdirməsi onarda heç bir milli təssübkeşliyin olmadını göstərir. Bir daha aydın görünür ki, onlara pulu məhz Azərbaycanı gözdən salmaq üçün ayırırlar.

Qeyd edək ki, Fransanın ədliyyə orqanları bu ölkənin Arnuvil şəhəri və 1992-ci ildən bəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yaradılmış qondarma qurumu təmsil edən Şeher inzibati bölgəsi arasında imzalanmış dostluq xartiyasını qeyri-qanuni elan edib və onu ləğv edib.

# "Son zəng" çalındı

## 2018-2019-cu tədris ilində respublikanın ümumtəhsil məktəblərinin IX siniflərini 113 815, XI siniflərini 80 514 şagird bitirir

***Bu gün Azərbaycanda bütün ümumtəhsil müəssisələrində onbirillik məktəb həyatının "Son zəng"i çalındı. 2018/2019-cu dərs ilinə yekun vuruldu. On bir il parta arxasında oturub müəllimlərini həvəslə dinləyən, elmi biliklərə yiyələnən məktəblilər məzun adını qazandılar. Yaddaşlarda qalacaq bu günün zəngi uşaqlıq və yeniyetməlik dövrünün xatirəsi tək əbədiləşəcəkdir. Artıq bu gündən gənclər müstəqil Azərbaycanın müstəqil vətəndaşı kimi həyata qədəm qoyacaqlar.***

Artıq neçə ildir ki, ölkəmizdə ümumtəhsil məktəblərində hər il iyunun 14-də son zəng qeyd edilir. SSRİ dövründə və dövlət müstəqilliyinin bərpasından sonra 2005-ci ilə qədər mayın 25-i, 2005-ci ildən 2016-cı ilə qədər isə mayın 31-də qeyd olunmuşdur. Bu il 2018-2019-cu tədris ilində respublikanın ümumtəhsil məktəblərinin IX siniflərini 113815, XI siniflərini 80514, qiyabi (axşam) ümumtəhsil məktəblərinin XII siniflərini isə 674 şagird bitirir. 20182019-cu tədris ilində Bakı şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərinin IX siniflərini 28993, XI siniflərini 19786 nəfər bitirir. 45616 nəfər isə I sinfi başa vuracaq. 2018-2019-cu tədris ilində respublika üzrə 2977 ümumi təhsil müəssisəsində fəaliyyət göstərən 5200 məktəbəhazırlıq qrupunu 97918 nəfər başa vuracaq. 2019-2020-ci tədris ilində respublikanın ümumtəhsil məktəblərinin I siniflərinə 164 234 uşağın qəbulu proqnozlaşdırılır. Onlardan 77542-si qız, 86692 nəfəri isə oğlandır.

### DÖVLƏT BÜDCƏSİNDƏN TƏHSİLƏ AYRILAN XƏRCLƏR BU SAHƏNİN KEYFİYYƏTCƏ YENİLƏŞMƏSİNƏ YÖNƏLİB

Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər gənclərimizin savadlı, rəqabətəqabil, həm də əsl vətəndaş kimi yetişməsində əvəzsiz rol oynayır. Müasir dövrdə ölkələrin inkişaf konsepsiyasını təhsil müəyyənləşdirir. Bu baxımdan, müasir təhsil sisteminin yeni çağırışlara cavab verməsi məqsədi ilə təhsilin normativ-hüquqi bazasının formalaşdırılması, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan sərəncamlar əsasında geniş tədbirlər həyata keçirilib. Ölkəmizdə son illərdə bir sıra dövlət proqramları uğurla icra olunub, təhsilin məzmunu yenilənib, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənib. Təkcə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünyanın aparıcı ali təhsil müəssisələrində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil alıblar. Təhsillərini yüksək akademik göstəricilərlə tamamlamış məzunların 60 faizi özəl, 40 faizi isə dövlət sektorunda fəaliyyət göstərir.

Bu gün Azərbaycanın daxili imkanları genişləndikcə, təhsil ocaqlarının yenidən qurulması, təmiri və inşası istiqamətində də, davamlı olaraq, işlər görülür. Azərbaycanın təhsil sisteminin normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi, təhsilin idarə olunmasının demokratikləşdirilməsi və təhsil sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində çox böyük işlər görülüb. Məhz bunun nəticəsidir ki, bu gün biz təhsilin keyfiyyətinin inkişaf etmiş ölkələrin səviyyəsinə yüksəldilməsi ilə bağlı qürur hissi keçiririk. Bütün bunlar Prezident İlham Əliyevin təhsilə, təhsil işçilərinə göstərdiyi yüksək diqqət və qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar sayəsində mümkün olub.

Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, dövlət proqramları və islahatlar, bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan, bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının yaradılması və daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də, neft gəlirləri Azərbaycanda, həm də təhsilin inkişafına yönəldilib. Şübhəsiz ki, bütün bunlar təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib. Qətiyyətlə deyə bilərik ki, Azərbaycanın gələcəyi üçün layiqli, ləyaqətli və vətənpərvər gənclər yetişir. 2018-2019-cu tədris ilində müxtəlif layihələr reallaşıb. Respublika və beynəlxalq səviyyədə fənn olimpiadaları keçirilib və iştirak edən şagirdlərin sayı xeyli artıb. Azərbaycan məktəblilərinin beynəlxalq bilik yarışlarında qazandıqları uğurlar bir-birini əvəz edir. Bu il daha bir Bakı məktəblisi Fidan Qarayevanın 8-ci Avropa Qızlar Riyaziyyat Olimpiadasının qalibi olması uğuru oldu. O, sadəcə, olimpiada qaliblərindən biri olmaqla qalmadı, üstəlik, bu olimpiadanın tarixinə öz yaşı ilə də adını yazdı. 13 yaşlı bürünc medal sahibi Avropa Qızlar Riyaziyyat Olimpiadasının tarixinə ən gənc qalib kimi düşdü.

### MƏKTƏBLƏRDƏ ÇALINAN "SON ZƏNG" MƏZUNLARIN İŞIQLI SABAHINA YENİ YOLLAR AÇIR

Ardıcıl olaraq, təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu, keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri davam edir. Yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından, çox mühüm addımlardandır. Ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı günü-gündən çiçəklənən ölkəyə çevirir. Hər bir gənc, harada çalışmağından asılı olmayaraq, dövlətimizə, dövlətçiliyimizin qorunmasına və milli-mənəvi dəyərlərimizin yaşamasına xidmət edəcəkdi. Təbii ki, bu, hər bir vətəndaşın borcu olmalıdır.

Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb. Təhsilin səviyyəsi, keyfiyyət baxımından, yeni mərhələsini yaşayır. Müasir gənclik ab-havanın içərisində məsuliyyət hissini ön plana çəkir və Azərbaycanın gələcək inkişafına doğru potensialını ortaya qoyur. İctimai-siyasi həyatda qlobal dəyişikliklərin aparılması gənclərin dünyaya inteqrasiya olunmasına gətirib çıxarır. Müasir dövrümüz elm, təhsil və qlobal düşüncə, Azərbaycan təhsilinin dünyaya inteqrasiyası dövrü kimi səciyyələnir. Bu, dövlət tərəfindən Azərbaycan təhsilinə göstərilən diqqət nəticəsində reallaşır. Ölkəmizdə gedən yenidənqurma işləri, iqtisadi, mədəni və sosial sahələrdə aparılan islahatlar Azərbaycan təhsilinə təsirini göstərməkdədir. Yaşadığımız yüzillik "Təhsil və informasiya əsri" elan edildiyindən, ölkə başçısı tərəfindən təhsilə böyük önəm verilir. Yeni proqram və layihələr, təhsil islahatları həyata keçirilir. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Buna görə də, məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilir.

Belə bir mühitdə təhsil alan bugünkü məzunlar Azərbaycanın demokratik bir dövlət kimi daha da inkişaf etdirilməsi üçün çalışmalı, bütün qüvvələrini ölkəmizin uğurlarına yeni uğurlar əlavə etməyə sərf etməlidirlər. Bu günün məzununu həyata hazırlayan güclü dövlətimiz, sağlam düşüncəli ziyalılarımız olduğundan - mətin, iradəli və intellektual səviyyəli gənclərimiz müstəqil həyata vəsiqə alırlar. Sabitliyin və əmin-amanlığın hökm sürdüyü Azərbaycanda məktəblərdə çalınan "Son zəng" - həyata çağırış zəngi məzunların işıqlı sabahına yeni yollar açır. Yolunuz uğurlu olsun, MƏZUNLAR!



***Nəzakət ƏLƏDDİNQIZI***

## Elmir Vəlizadə: Azərbaycan gələcəkdə "Rəqəmsal İpək Yolu" layihəsinin bir hissəsi olacaq




Gələcəkdə Azərbaycan "Rəqəmsal İpək Yolu" ("Digital Silk Way") layihəsinin bir hissəsi olacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan-Avropa İttifaqı biznes forumu çərçivəsində keçirilən panel iclasda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə deyib. O bildirib ki, hazırda məqsəd ətraf ölkələrin tranzit marşrutlarının, data marşrutlarının ölkəmizdən keçməsini və burada kəsişməsini təmin etməklə Azərbaycanı mərkəzi mübadilə mərkəzinə çevirməkdir. "Digital Hub" layihəsi barədə danışan nazir müavini deyib ki, birinci fazada bütün layihələrin həyata keçirilməsi üçün əsas infrastrukturun qurulmasıdır. Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi və ölkəmizin tranzit potensialının gücləndirilməsi istiqamətində son illər bir sıra mühüm layihələr icra olunur. Hazırda Azərbaycanın regionun rəqəmsal mərkəzinə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramının icrası davam edir. Bu proqramın əsas hədəfi Azərbaycanın telekommunikasiya ekosisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə çatdırılması, ölkənin internetin alışında xarici ölkələrdən asılılığının minimuma endirilməsi, perspektivdə isə respublikamızın regionda internetin satışında mərkəzi ölkəyə çevrilərək rəqəmsal xidmətlər idxal edən tərəfdən "Made in Azerbaijan" brendi ilə bu xidmətləri istehsal və qonşu regionlara ixrac edən ölkəyə transformasiya olunmasıdır. Məqsəd həm Azərbaycanda bütün standartlara cavab verən yeni infrastrukturun qurulması, həm də bunun ətraf ölkələrdəki infrastrukturla kəsişməsini təmin etməkdir.

## Yanvar-may aylarında Azərbaycana gələn turistlərin sayı 3,8 faiz artıb



Yanvar-may aylarında Azərbaycana gələn turistlərin sayında ötən ilin müvafiq dövrünə nisbətən 3,8 faiz artım müşahidə olunub. AZƏRTAC xəbər verir ki, bu barədə iyunun 13-də Bakıda keçirilən V Azərbaycan-Avropa İttifaqı biznes forumu çərçivəsində "Turizm" adlı panel iclasda Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqştşmid deyib. O bildirib ki, ötən il ölkəyə 2,8 milyon turist gəlib. Çin, Koreya Respublikası və Yaponiyadan gələn turistlərin sayında 8-9 faiz artım olub. Həmçinin, Yaxın Şərq ölkələrindən, Qətər, Bəhreyn, Birləşmiş Ərəb Əmirliklərindən gələn turistlərin sayı da artıb.

# Zərdabda baramaçılığın yeni inkişaf dövrü başlayıb

*Rayonda qısa müddətdə bu günədək 62,7 ton barama təhvil verilib*

***Bu gün bölgələrimizdə baramaçılığın inkişafı üçün mühüm tədbirlər həyata keçirilir. Qeyri-neft sektorunun inkişafına yönəldilən tədbirlər sırasında, bu sahənin inkişafı daha qabarıq şəkildə özünü büruzə verir.***





Mövcud fakt ondan ibarətdir ki, Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində qədim ənənələrə söykənən baramaçılığın və ipəkçiliyin bərpası kənd təsərrüfatının prioritet istiqamətlərindəndir. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramları çərçivəsində ölkədə ipək məhsullarının istehsalı, tədarükü və emalı sahələrində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, ənənəvi baramaçılıq rayonlarında barama istehsalının və emalının dəstəklənməsi üçün zəruri tədbirlər görülmüşdür. Baramaçılığın və ipəkçiliyin inkişafı üzrə nəzərdə tutulan işlərin vahid proqram əsasında həyata keçirilməsi məqsədi ilə hazırlanmış "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" bu sahəyə dövlət dəstəyinin gücləndirilməsinə, ixrac potensialının artırılmasına və kənd yerlərində məşğulluğun təmin edilməsinə yönəldilib. Regionların sosial-iqtisasdi inkişafı Dövlət Proqramı çətçivəsində Bərdə, Ucar, Zərdab, Balakən, Qax, Şəki rayonlarında, Naxçıvan Muxtar Respublikasında ipəkçilik məhsullarının istehsalının və emalının inkişafının dəstəklənməsinin davam etdirilməsi nəzərdə tutulub. Nəzərə almaq lazımdır ki, Azərbaycanda baramaçılığın və ipəkçiliyin inkişafında əsaslı dönüş keçən əsrin 70-ci illərinin əvvəllərinə təsadüf edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul olunmuş "Azərbaycan Respublikasında ipəkçiliyin gələcək inkişafına dair tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Sovetinin 1971-ci il 3 mart tarixli 106 nömrəli qərarı baramaçılığın və ipəkçiliyin inkişafına böyük təkan vermiş, görülən tədbirlər nəticəsində, bu sahənin maddi-texniki bazası, sənaye potensialı gücləndirilmiş və barama tədarükü xeyli artmışdı. O dövrə yaş barama istehsalı 1970-ci ildə 3,7 min, 1975-ci ildə 4,4 min, 1980-ci ildə 5,0 min, 1985-ci ildə isə 5,5 min ton olmuşdu. Ötən əsrin 70-80-ci illərdə Azərbaycan Elmi Tədqiqat İpəkçilik İnstitutu, damazlıq stansiyaları, barama toxumu zavodları, rayon barama qurutmaxanaları, ipəkçilik idarələri, tingçilik təsərrüfatları və emal müəssisələri vahid kompleks şəklində fəaliyyət göstərirdi və respublikanın 60 rayonunda baramaçılıq şəbəkəsi yaradılmışdı. Aparılan məqsədyönlü işlər nəticəsində, 1991-ci ildə ölkədə yaş barama istehsalı 5,9 min tona çatdırılmışdı.

## Baramaçılığın inkişafında yeni mərhələ!

Bəs bu gün bu sahənin inkişafı üçün regionlarımızda, konkret olaraq, hansı tədbirlər reallaşdırılır? Baramaçılığın inkişaf etdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində Zərdab rayonunda xeyli iş görülüb. Rayon üzrə 2016-cı ildə 5710 kq, 2017-ci ildə 27 ton 55 kq, 2018-ci ildə 53 ton 880 kq barama tədarük edilib. Yem bazasını təmin etmək üçün son illərdə rayonda 500 minə yaxın yerli və Çin Xalq Respublikasından gətirilmiş tinglər əkilib.

2019-cu ildə 1750 qutu barama qurdu kümçülərə paylanıb. 3800 nəfəri əhatə edən 760 ailə baramaçılıqla məşğul olur. Bu günədək 62,7 ton barama təhvil verilib. Hazırda bu rayonda barama tədarükü davam etdirilir. Rayon üzrə öndə gedən kümçülərdən Gəlmə kənd sakini Teymur Teymurzadə, Alıcanlı kənd sakini Əlişah Cavadov, Məmmədqasımlı kənd sakini İsrayıl Mikayılov, Məmmədqasımlı kənd sakini Sırac Eyvazov, Gödəkqobu kənd sakini Kapitay İxtiyarov, Dəli Quşçu kənd sakini Tural Nağıyev, Nəzəralılı kənd sakini Surxay Xəlilov, Təzəkənd kənd sakini Hüseyn Mikayılov, habelə, Çallı kənd sakini Elçin Xəlilov və Məlikli kənd sakini İsrayıl Abbasov xüsusi ilə fərqlənirlər. Bəli, bu gün Zərdab rayonu baramaçılığın inkişafında fəallığı ilə seçilən rayonlarımızdandır. Bütün bu göstəricilər isə, onu deməyə tam əsas verir ki, Zərdabın zəhmət adamları ildən-ilə bu sahənin inkişafı üçün, eyni zamanda da, özlərinin sosial rifah hallarının daha da yaxşılaşması üçün əzmkarlıqla çalışacaqlar. Görülən zəhmət isə heç vaxt yerdə qalmır!

***İLHAM***





# Bakı Slavyan Universitetində imtahan sessiyasının monitorinqi aparılıb

***Dünən BSU-da aparıcı KİV nümayəndələri və təhsil ekspretlərinin iştirakı ilə 2018-2019-cu tədris ilinin yay imtahan sessiyasının monitorinqi aparılıb. Qonaqlar auditoriyalarda imtahanların gedişini izləyib və burada kameraların, ağıllı lövhələrin də iş prinsipləri ilə tanış olublar.***

Sonra müşahidəçilər Operativ Qərargahın işi ilə tanış olublar. BSU-nun rektoru, professor Nurlana Əliyeva onlara imtahan sessiyası ərəfəsində universitetdə aparılan işlər və imtahanlara hazırlıq barədə məlumat verib.

Hazırda universitetin əsas və ikinci tədris binasında ümumi 55 auditoriyada imtahan keçirildiyini diqqətə çatdıran N.Əliyeva məlumat verib ki, bu imtahanlardan 36-sı əsas binada, 19-u ikinci tədris binasında aparılır. Rektor imtahan sessiyası ərəfəsində hər bir kursun tələbələri ilə ayrıayrılıqda görüş keçirdiyini, onlara öz tövsiyyələrini verdiyini və imtahanlarda biliyin yeganə meyar olmasının izah edildiyini bildirib. N.Əliyeva imtahanlara hazırlıq üçün universitetdə hər cür lazımi şəraitin yaradıldığını, məsləhət saatlarının keçirildiyini qeyd edib. Rektor imtahanlarla bağlı məsələlərin əvvəlcə universitetin Elmi Şurasında müzakirə olunduğunu da diqqətə çatdırıb.

Rektor müşahidəçilərə qərargahın iş prinsipi, tətbiq olunan yeniliklər, şikayətlərin qəbul edilməsi, cavablandırılması və s. barədə ətraflı məlumat verib. Rektorun sözlərinə görə, imtahandan əvvəl qərargah üzvləri tərəfindən auditoriyalara baxış keçirilir və çatışmazlıqlar dərhal aradan qaldırılır. O, imtahanlarla bağlı şikayətlərə əvvəlcə dekanlıq nəzdində fəaliyyət göstərən Münaqişə Komissiyalarında, məsələ burada həllini tapmadığı təqdirdə isə, universitetin Münaqişə Komissiyasında baxıldığını bildirir. N.Əliyeva qeyd edib ki, iyunun 1-dən etibarən başlayan imtahanlar iyulun 6-a qədər davam edəcək.

Rektor universitetin beynəlxalq əlaqələrinin daha da genişləndiyini diqqətə çatdıraraq, hazırda BSU-nun 113 xarici universitetlə əməkdaşlığa dair müqaviləsinin olduğunu bildirib. O, qeyd edib ki, bu müqavilələr çərçivəsində xarici universitetlərlə müəllim-tələbə mübadiləsi, habelə, beynəlxlaq elmi konfranslar həyata keçirilir və elmi məcmuələr nəşr olunur. Görüşün sonunda jurnalistlərin imtahan sessiyası ilə bağlı təəssüratları dinlənilib.

***ZÜMRÜD BAYRAMO***

# DTX dövlətə xəyanətdə şübhəli bilinən baş redaktoru saxlayıb



***Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) aparılan istintaq-əməliyyat tədbirləri nəticəsində 1989-cu il təvəllüdlü, Azərbaycan Respublikasının vətəndaşı, "xeberman.com" və "pressaz.com" informasiya saytlarının təsisçisi və baş redaktoru Aslanov Polad İsrayıl oğlu dövlətə xəyanət cinayət əməllərinə görə şübhəli şəxs qismində saxlanılıb.***

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə müəyyən edilib ki, Polad Aslanov xarici xüsusi xidmət orqanlarının əməkdaşları ilə respublikadan kənarda məxfi görüşlər keçirib, aldığı pul vəsaitinə dair qəbzləri imzalayıb müntəzəm pul vəsaitləri ödənilməsi şərti ilə maddi maraq müqabilində məxfi əməkdaşlığa cəlb edilib. O, xarici xüsusi xidmət orqanlarının əməkdaşlarından aldığı tapşırıqlar əsasında Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə olaraq istifadə etmək üçün topladığı məlumatları həmin orqanlara ötürüb, onların tapşırığı ilə mətbuatda, sosial şəbəkələrdə dövlət əleyhinə, hüquq-mühafizə orqanlarının qanuni fəaliyyətini nüfuzdan salmağa yönəlmiş yazılar yayımlaması razılaşdırılıb.

Polad Aslanov adları istintaq sirri kimi hazırda açıqlanmayan jurnalistləri gələcək əməkdaşlıq imkanları üzrə xarici ölkə ərazisində həmin xüsusi xidmət orqanı əməkdaşları ilə tanış edib.

İstintaq zamanı Polad Aslanovun Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd olaraq xarici xüsusi xidmət orqanı nümayəndələri ilə əməkdaşlığına dair çoxsaylı materiallar əldə edilib, Polad Aslanov törətdiyi cinayət əməlləri barədə ətraflı məlumatlar verib. Polad Aslanov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb olunub. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Putin: "MDB-nin informasiya məkanı açıq olmalıdır"



Rusiya Prezidenti Vladimir Putinin fikrincə, MDB-nin ümumi informasiya məkanı açıq olmalı, burada məhdudiyyətlər minimuma endirilməlidir. AZƏRTAC xəbər verir ki, V.Putin bu fikri "Mir" teleradio şirkətinə müsahibəsində söyləyib.

Rusiya dövlətinin başçısının fikrincə, MDB-nin informasiya məkanı açıq olmalıdır. "Burada müxtəlif məhdudiyyətlərin sayı minimuma endirilməlidir. Mövcud məhdudiyyətlər yalnız təhlükəsizlik mülahizələri, mənəviyyatın, əxlaqın hamılıqla qəbul edilmiş elementləri ilə bağlı olmalıdır", - deyən Prezident daha sonra vurğulayıb: "Bütövlükdə, bu informasiya məkanı maksimum dərəcədə açıq olmalıdır ki, bütün informasiya mənbələri qorunsun, onlara hörmət bəslənilsin və onlar səmərəli şəkildə işləyə bilsinlər. Onlar nə qədər az siyasiləşdirilsə, bir o qədər yaxşıdır".

# 15 İYUN - MİLLİ QÜRUR TARİXİMİZ

***Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun, sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə dövlət müstəqilliyini elan etdi. Təəssüf ki, müstəqilliyin ilk illərində dövlətin idarəçilik sükanı arxasında xalqın qüvvələrini bir yerə cəmləşdirə biləcək qüdrətli bir lider yox idi. Həmin dövrdə Azərbaycan ərazilərinin davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin günbəgün ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək və xalqı öz arxasınca aparmağa qadir LİDERƏ ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, yenicə müstəqillik qazanmış ölkəni düşmüş olduğu ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət, məhz Ulu Öndər Heydər Əliyevdir! Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə, öz gələcək taleyini özü həll etmək niyyətində idi.***




Ulu Öndər Heydər Əliyev:

## "1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı"

1993-cü ilin ortalarına doğru hakimiyyət böhranı getdikcə daha kəskin xarakter alırdı. Bu dövrdə hakimiyyətdə olan qüvvələr öz səriştəsiz əməlləri ilə Azərbaycanın müstəqilliyi üçün təhlükə yaratdılar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müstəqilliyimizin bu mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi və həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində, Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də, daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".



***KAMİL MİRZƏYEV, YAP Biləsuvar rayon təşkilatının sədri***

1993-cü ildə xalqın xahiş və tələbi ilə Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmləndirilməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynamışdır. 1993-cü ildə "olum, ya ölüm" dilemması ayrıcında qalmış Azərbaycan Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində, gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrilmişdi.

Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı Onu bütün dünya azərbaycanlılarının lideri etmiş, ömür yolu doğma vətənə xidmət nümunəsinə çevrilmişdi. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutmuşdu. Ulu Öndər Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq Ona əvəzsiz Ümummilli Lider mövqeyi qazandırmışdır. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində, O, zəmanəmizin əbədiyaşar dahisinə çevrilmişdi. Azərbaycan xalqı haqlı olaraq Ulu Öndər Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir.

## Həqiqətən də, sübut olundu ki, müstəqilliyi qoruyub-saxlamaq, müstəqilliyi əldə etməkdən qat-qat çətindir

Ulu Öndər Heydər Əliyev 15 iyun tarixi barədə danışakrən, vurğuylayıb ki, bu hadisə zərurətdən doğan bir faktor idi. Belə ki, 28 May Respublika Günü münasibəti ilə 2001-ci il mayın 26-da keçirilmiş tədbirdə bu barədə belə demişdir: "1991-ci ildə müstəqilliyi elan etmək çətin bir məsələ deyildi. Çünki bu, tarixi zərurətdən irəli gəlmiş bir hadisə idi. SSRİ dağılırdı, istəsən də, istəməsən də, sən öz respublikanın aqibətini müəyyən etməli idin. Burada da müstəqillikdən savayı başqa yol yox idi. Amma bu müstəqilliyi qoruyub-saxlamaq, o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi".

Müstəqillik yoluna qədəm qoymuş respublikamızın qarşısında yeni mərhələdə tarixi vəzifələr dururdu. Tarix bu vəzifələrin yerinə yetirilməsi üçün ölkənin intellektual, sosial - iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi. Ulu öndər Heydər Əliyevin 2001-ci il 20 mart tarixli Fərmanında bu barədə deyilir: "Təəssüf ki, 1991-1993-cü illərdə bu istiqamətdə, bu barədə heç bir iş aparılmadı. Müstəqil Azərbaycan dövlətinin keçdiyi yeni mərhələdə ölkənin iqtisadi, siyasi maraqları, təhlükəsizliyi, ərazi bütövlüyünün təmin olunması ilə bir araya sığmayan daxili və xarici siyasəti müstəqil dövlətçiliyə, onun sonrakı taleyinə ağır zərbələr vurdu. Azərbaycanda Ermənistanın təcavüzü ilə yanaşı, daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və ölkənin daxilində qızğın hakimiyyət çəkişməsi başlanmışdı".

## Müstəqilliyin əldə olunmasında Yeni Azərbaycan Partiyasının əvəzsiz xidmətləri böyükdür

Belə bir mürəkkəb şəraitdə Naxçıvanda yaşayan Ümummilli Lider Heydər Əliyev 1991-ci il sentyabrın 3-də muxtar respublikanın Ali Məclisinə Sədr seçildi. Ulu Heydər Əliyevin, nüfuzu nəinki Naxçıvanda, hətta bütün Azərbaycanda günbəgün artırdı. Bundan qorxuya düşən AXC-Müsavat hakimiyyətinin silahlı qüvvələri 1992-ci il oktyabrın 24-də Naxçıvanda çevriliş etməyə, Heydər Əliyevi tutduğu vəzifədən devirməyə cəhd göstərdilər. Lakin xalq öz böyük oğlunu müdafiə etdi, Onunla birlikdə olduğunu bir daha sübuta yetirdi. İlk dövlət çevrilişinə cəhdin qarşısı alındı. Belə bir şəraitdə xalqın gələcək taleyinə biganə qala bilməyən insanlar 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransını keçirdilər. O dövrdə YAP-ın yaranması tarixi zərurət idi və Azərbaycanın dünyada tanınmış və dövlətçilik təcrübəsi olan liderə ehtiyacı var idi. Bu Lider Heydər Əliyev idi və hamı bu həqiqəti bütün varlığı ilə dərk edirdi. Ona görə də, YAP Azərbaycanın bütün bölgələrində böyük sürətlə yaranır və təşkilatlanır, Ulu Öndər Heydər Əliyev siyasətini təbliğ edirdi. Ancaq bu ərəfələrdə AXC-Müsavat iqtidarının günahı üzündən Gəncədə qardaş qanı töküldü. O günlərdə Gəncədə ardı-arası kəsilməyən mitinqlər keçirilir, hadisələrə siyasi qiymət verilməsi tələb edilirdi. Belə bir gündə - iyunun 5-də Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Ali Məclisi hadisə ilə əlaqədar bəyanat verdi. Bəyanatda gəncəlilərə müraciət edilərək, onların imperiya nökərlərinə layiqli cavab verəcəklərinə, müstəqilliyimizi və gənc Azərbaycan dövlətini qoruyub- saxlayacaqlarına böyük inam ifadə olunurdu. Belə bir vaxtda, Heydər Əliyevin Bakıya gəlişi respublika əhalisində gələcəyə böyük ümidlər yaratdı. Hadisələrin bu fonunda xarici havadarları tərəfindən himayə olunan separatçı qüvvələr cənubda "Talış-Muğan Respublikası" elan etməyə səy göstərirdilər. Şimalda da bu cür qüvvələrin fəallığına təkan verilirdi. Belə bir vaxtda, Möhtərəm Heydər Əliyevin Bakıya gəlişi respublika əhalisində gələcəyə böyük ümidlər yaratdı. Tezliklə Milli Məclisdə Gəncə hadisələrinə hüquqi-siyasi qiymət verildi və qardaş qırğınına meydan açanlar öz layiqli cəzalarını aldılar.

1993-cü il iyunun 15-də Heydər Əliyev ölkənin ali qanunvericilik orqanına Sədr seçildi. Həmin iclasda Ulu Öndər çıxış edərək, tarixi nitqini söylədi: "...Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm... Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm."

Bu tarixi qayıdış, sözün həqiqi mənasında, Azərbaycan dövlətçiliyinin və millətimizin qurtuluşu idi. "Buna görə də, xalqın müxtəlif təbəqələrinin arzu və istəyini nəzərə alaraq, 1997-ci il iyunun 17-də 15 iyunun Milli Qurtuluş Günü elan edilməsi təklifi ilə çıxış edəndə, deputatlar təklifimi dərhal müdafiə etdilər. 10 gün sonra - iyunun 27-də parlamentimiz tarixi qərar qəbul edərək, 15 iyunu Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etdi" deyə Ulu Öndər Qurtuluş Gününün elan edilməsi ilə bağlı çıxışında bildirmişdir. Görkəmli dövlət xadimi, bütün türk dünyasının ən nadir tarixi simalarından sayılan Heydər Əliyevin rəhbərliyi ilə respublikamız Qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Ulu Öndər Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycan xalqının müstəqilliyini məhv olmaqdan qurtardı və bu müstəqilliyi daimi, əbədi, sarsılmaz və dönməz etdi.

## Bütün bunların əsas mənbəyi isə, məhz 15 iyun tarixindən doğan reallıqlardır

Bu günün fövqündən baxanda, Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin siyasi varisi, Əliyevlər ocağının ən layiqli yetirməsi Cənab İlham Əliyevin əlindədir. Biz Heydər Əliyev ideyaları işığında müstəqil Azərbaycanımızın Prezidenti İlham Əliyevlə daha yüksək zirvələr fəth edəcəyini görürük və buna qəlbən inanırıq.

Azərbaycan dünyanın mərkəzinə çevrilərək, beynəlxalq aləmdə lider ölkələr sırasına qatılmaqdadır. Əbəs yerə deyil ki, artıq paytaxtımız Bakı başda olmaqla, regionlarımız günü-gündən gözəlləşir, abadlaşır və tərəqqi yolunda uğurla addımlayır. Baxın, hələ "Eurovision" mahnı yarışmasından öncə, bir çox qaragürühçu qüvvələr bu böyük tədbirin iflasa uğrayacağını iddia edərək, inkişaf xəttimizə pəl vurmağa çalışırdılar. İstər xarici, istərsə də daxili düşmənlərimiz müstəqilliyimizə kölgə salmaq üçün daha hansı oyunbazlıqlara əl atmadılar?! Ancaq bu yarış paytaxtımız Bakıda öz əsrarəngilziyi və analoqsuzluğu ilə baş tutdu. Nəinki Avropa, bütün dünya və milyardlarla insan Azərbaycanın inkişafını öz gözləri ilə gördü.

Bunun ardınca I Avropa Oyunlarının ölkəmizdə keçirilməsi, eləcə də, bu yarışların regionlarımızda da keçirilməsi artıq növbəti böyük addım idi. O zaman da bəzi qüvvələr çox cəhdlər göstərdilər ki, müstəqilliyimizə qarşı fəsadlar göstərsinlər. Ancaq Azərbaycan xalqı el birliyi ilə bu möhtəşəm idman hadisəsini də uğurla başa vurmuş oldu, müstəqil Azərbaycanın adını tarixlərə yazdı. Daha sonra bir neçə beynəlxalq idman turnirlərinin və dünya çempionatlarının da baş tutması buna sübutdur.

Azərbaycanın tərəqqisi və inkişafı, dünya dövlətləri arasında xüsusi əhəmiyyətilə seçilməsi Ulu Öndər Heydər Əliyev siyasətinin məntiqi nəticəsidir. Azərbaycan bir çox mötəbər beynəlxalq təşkilatlarda söz sahibinə çevrilib. Bəli, bütün bunların əsas mənbəyi isə, məhz 15 iyun tarixindən doğan reallıqlardır.

Fürsətdən istifadə edərək, mən də qürurlu azərbaycanlı kimi bütün xalqımızı qarşıdan gələn gələn bayramlarımız münasibəti ilə ürəkdən təbrik edirəm, BAYRAMLARINIZ MÜBARƏK, BÖYÜK VƏ QÜDRƏTLİ AZƏRBAYCAN XALQI!

# Xristianlıq və erkən evlilik

***Katolik kilsəsi, Roma hüququnda olduğu kimi, qızlar üçün yetkinlik yaşını 12, oğlanlar üçün 14 təyin etmişdir. Bu, 1917-ci ilədək belə davam etmişdir. Erkən evlilik ənənəsinin Avropada kilsə tərəfindən davam etdirilməsi, xristianlığın bu cür evlilik tərəfdarı olduğunu göstərmirdi. Çünki kilsə, XII əsrdən başlayaraq, gizli şəkildə Roma hüququna qarşı çıxmağa başlayırdı. Bu dövrdə Roma hüququna zidd olaraq, katolik kilsə 12 yaşında qızlara və 14 yaşında oğlanlara atalarının icazəsi olmadan, sərbəst (hətta məxfi) nikaha daxilolma hüququ verdi.***

R.Məmmədov yazır: "Nəyə görə kilsə bu addımı atmışdır? Burada əsas məqsəd, Avropada hakimiyyəti tədricən öz əlinə almaq və yerlərdə ruhanilərin hakimiyyətinə əsaslanan teokratik sistemi qurmaq idi. Bunun üçün, Avropada olan böyük patriarxal ailələrin və onun üzərində qurulan monarxiyaların özünə tabe etdirilməsi zəruri idi. Katolik kilsə, Şərqi Romada monarxiyanı dəstəkləyən ortodoks kilsədən fərqli olaraq, teokratik rejimin tərəfdarı idi. Bunun üçün, nikah qurumuna nəzarəti ələ almaq və valideynlərin icazəsi olmadan, evlənənlərin sərbəst nikaha daxil olma hüququnu təmin etmək lazım idi. Kilsə, nikahı sirli-ilahi bir akt kimi dəyərləndirməklə, nikah qurumunu öz himayəsi altına aldı. Bu yolla, böyük ailələri parçalayaraq, nuklear-monoqam ailələrin artmasına şərait yaratdı. Kilsənin kanonik hüququ çərçivəsində qəbul edilən qərarlar (övladlığa götürməmək, boşanmamaq, təkrar nikaha və çoxevliliyə yol verməmək, qohumlararası evliliyə son qoymaq) böyük ailənin parçalanmasına və zəifləməsinə xidmət etdi.

Xristianlığı qəbul edən avropalılar tədricən böyük ailənin ənənəvi hakimiyyətindən uzaqlaşaraq, kilsənin hakimiyyətinə tabe olurdular. Bunun nəticəsində, böyük ailələrin geniş təsərrüfatları kiçik təsərrüfatlara bölünürdü. Bu təsərrüfatlarda artıq ata, ana, övladlar, bəzən baba və nənədən ibarət kiçik nuklear-monoqam ailələr meydana çıxırdı (XII-XIII əsrlər). Bu yolla, orta əsr Avropasında katolik kilsə siyasi hakimiyyəti öz əlinə aldı və bir çox krallıqları öz təsiri altında saxladı."

Kilsə, Avropada öz siyasi hakimiyyətini gücləndirəndən sonra da, erkən evlilik ənənəsini ortadan qaldırmadı. Çünki bu ənənə bir zamanlar böyük ailələrin sosial-iqtisadi gücünü artırırdısa, sonralar o yuruşləri həyata keçirən kilsənin də hərbi gücünə təkan verdi. Artıq erkən evlilik nəticəsində, artan əhali, kilsənin "ilahi məqsədləri" naminə vuruşurdu.

Vatikan ilə yanaşı, erkən evlilik ənənəsi katolik kilsənin himayəsində olan Avropa ölkələrində və digər yerlərdə davam etmişdir. XII əsrdə Avropada kanonik hüququn banilərindən olan hüquqşünas Qrasian bildirirdi ki, nikah üçün yetkinlik çağı 12-14 yaş arasındadır. Ona görə, nikah üçün razılıq 7 yaşında alına bilərdi. Bu razılıq, tərəflərdən biri ilə yetkinlik çağınadək pozulmayıbsa, 12 yaşında qıza nikah bağlanırdı.

Avropada, həmçinin, 12 yaşadək də nikahlar bağlanırdı. Bu nikahlar yalnız aşağı və orta təbəqə nümayəndələri arasında deyil, həmçinin, ali təbəqə arasında da olurdu. Məsələn, 1180-ci ildə 15 yaşlı kral Filip-Avqust 10 yaşlı İzabella ilə evlənmişdi. Fransa kralı IX Lüdovik 1234-cü ildə gənc yaşında 13 yaşlı Marqarita ilə ailə həyatı qurmuşdu. IV Filip 17 yaşında 11 yaşlı Janna ilə evlənmişdi. Belə insanların sayı çoxdur.

Müəllifin fikrincə, katolik kilsəsi orta əsr Avropasında Qədim Romadan gələn əxlaqsızlıq ənənəsinin qarşısını nəinki aldı, hətta onun inkişafı üçün yeni şərait yaratdı. Avropanın əksər yerlərində keşişlərə və zadəganlara aid olan çoxsaylı əxlaqsızlıq yuvalarından gəlirlər əldə olunurdu. Cəmiyyətdə xəyanət, nikahdankənar doğuşlar, boşanmalar və əxlaqsızlıqlar normativə çevrilirdi. Lakin Qədim Romadan fərqli olaraq, orta əsr Avropasında kilsə etikası, antik estetikanı və homoseksual münasibətləri qadağan etmişdi.

R.Məmmədov yazır:"Orta əsr Avropasında sosial-mədəni sistem elə formalaşmışdı ki, qadının erkən ərə getməkdən başqa çıxış yolu qalmamışdı. Çünki 15-16 yaşdan yuxarı ərə getməyən qızlar evdə qarımışlar kimi cəmiyyətin qınağı ilə üzləşirdi, digər tərəfdən, onların cəmiyyətdə fahişəlik etməkdən başqa işləyib-qazanmaq imkanları çox məhdud idi. Bir yol qalırdı - monastır. Lakin monastırlar da yoxsul qadınları qəbul etmək istəmirdilər. Yəni gender bərabərsizliyinə əsaslanan sosial mühit, qadınlar üçün bir yol seçmişdi: maksimum 15 yaşadək ərə getmək. Ərə getdikdən sonra uşaq dünyaya gətirə bilməyən qadınlar ailədaxili diskriminasiyaya məruz qalır və təhqir olunurdular (günahkar kişilər olsa belə). Bu qadınların zina etmək imkanları da məhdud idi. Çünki bir tərəfdən, sərt ictimai patriarxal nəzarət və ağır cəzalandırma mexanizmi, digər tərəfdən isə, evli qadınlar üçün nəzərdə tutulan "bakirəlik kəməri" buna imkan vermirdi. Qadın və kişilərin bərabərliyi prinsipi ailədə və cəmiyyətdə anormal bir hal kimi qəbul edilirdi."

Səlib yürüşlərindən sonra XIII-XIV əsrlərdə Avropa cəmiyyətində kişilərin qadınlara baxışları qismən dəyişdi. Çünki bu döyüşlərdə kütləvi şəkildə məhv olan kişilərin qadınları onların mülkünə sahib çıxdı və öz zəhmətləri ilə övladlarını böyüdüb, boya-başa çatdırdılar. Onların tərbiyəsi altında yeni bir kişi nəsli yetişdi. Bu nəsil, əvvəlkilərdən fərqli olaraq, qadını yalnız bir ana kimi deyil, həmçinin, atalıq funksiyasını yerinə yetirən fədakar bir məxluq kimi tanıdı. Məhz bu dövrlərdə İtaliyada intibah dövrünün elementləri üzə çıxmağa başlayırdı. Lakin kilsənin və onun təsiri altında olan krallıqların güclü təzyiqi altında olan cəmiyyətdə ənənəvi dəyərlərin dəyişdirilməsi çox çətin idi. Hələ, XVII əsrdə İngiltərədə Ser Edvard Koks yazırdı: "Qızların 12 yaşa qədər nikahlanması norma hesab olunurdu. 9 yaşında evlənən qızın ərinin mülkünün bir hissəsinə haqqı çatırdı. Halbuki onun ərinin 4 yaşı var idi."

R.Məmmədov yazır: "Avropada intibah dövrünün başlamasına təkan verən yeni düşüncəli insanlar və gizli təşkilatlar meydana çıxdı. Onların əsas ideyası insanın, xüsusilə, qadının fiziki-mənəvi varlığını çılpaq şəkildə diqqət mərkəzinə gətirmək idi. İkonalarda müqəddəsləri və Hz. Məryəmi qapalı geyimlərdə təsvir edən kilsə estetikasına qarşı, adi qadın və kişiləri çılpaq rəsmlər vasitəsilə ideallaşdıran intibah estetikası meydana çıxdı. Qədim Roma estetikasının yeni formada davamı olan bu ənənə humanizm kimi tanındı.

İntibahçılar, sosial-mədəni sistem üçün təhlükəli idilər. Çünki onlar incənət vasitəsilə kilsənin ilahiləşdirdiyi etikanı alt-üst edirdilər. Bu, ictimai şüurda inqilabın yaradılmasına və kilsənin cəmiyyət üzərində hakimiyyətinin zəiflədilməsinə hesablanmışdı. Kilsə, bu təşkilatları eretik (bidətçi) qurumlar, intibahçıları eretiklər kimi dəyərləndirərək, onlara qarşı inkivizisiya məhkəmələrini qurdu. Buna görə də, onlar gizli fəaliyyət göstərərək, sonralar meydana çıxan gizli masonik şəbəkənin təməlini təşkil etdilər.

İntibahçı elm və incəsənət adamlarını bir araya gətirən və onlara hərtərəfli dəstək verən İtaliya bankirləri idilər. Onlar, öz sələmçi bank şəbəkə sistemlərini Avropada və digər qitələrdə genişləndirmək üçün, müəyyən maneələrlə üzləşirdilər. Bu maneələrin başında katolik kilsəsi dururdu. Buna görə də, kilsənin nüfuzunun zəiflədilməsi və onun ələ alınması siyasəti, strateji hədəf seçilmişdi. Bu hədəfə çatmağın yolu, teosentrizmə qarşı humanizmin antroposentrizm ideologiyası oldu. Bu ideologiya kilsənin asketizminə (tərkidünyalıq) qarşı gedonizm (eyş-işrətçilik) əxlaqını, ilahi sevgiyə qarşı dünyəvi sevgini alternativ kimi qoydu. İntibahçı rəssamların əsərlərində, əsasən, çılpaq qadın obrazlarının üstünlük təşkil etməsi, bir daha göstərir ki, bu ideologiyanın təməlində ilkin feminizm ideyaları dayanmışdı."

İtaliya bankir ailələri arasında florensiyalı Mediçi ailəsi xüsusi yer tuturdu. İntibahçı rəssam və elm adamlarının əksəriyyəti bu ailə tərəfindən dəstəklənirdi. Bu ailə, Avropada və Yaxın Şərqdə olan (Misir) sələmçi bankları ilə zənginləşərək, bütün Avropa üzərində hakimiyyət əldə etməyə çalışırdı.Bunun üçün,onamane olan-




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

kilsə və bir çox monarxiyalar zəiflədilməli idi. Mediçilər bir müddət kilsə hakimiyyətini öz əllərinə aldılar. Katolik kilsəsinin papası X Lev Covanni Mediçi ailəsinin üzvü idi. O, əlavə gəlir əldə etmək üçün, kilsəyə indulgensiya adətini gətirdi. Lakin keşiş Martin Luter xalqı papaya qarşı üsyana qaldırdı. Nəticədə, Almaniyada Lüterin tərəfdarları Romaya hücum etdilər. Bu dövrdən katoliklər ilə protestantlar arasında münaqişə vətəndaş müharibəsinə çevrildi. Növbəti Papa VII Kliment də Mediçi ailəsinin üzvü idi. Papa VII Kliment bacısı qızı Yekatrina Mediçini 14 yaşında Fransa kralının oğluna ərə verdi. Beləliklə, Mediçilər Avropada öz mövqelərini gücləndirdilər.

R.Məmmədovun fikrincə, İeronim Basx və Leonardo da Vinçinin əsərləri daha çox şifrəli xarakter daşıyırdı. Hər iki rəssam kilsəyə qarşı olan gizli eretik təşkilatların üzvləri idi. Leonardo da Vinçinin "gizli axşamlar" əsəri öz gizli şifrələri ilə xristianlığın üçlük kredosuna dərin zərbə vururdu. Bu əsərdə, kilsənin əxlaqsızlıq damğası vurduğu Mariya Maqdalena Hz. İsanın həyat yoldaşı kimi qələmə verilir və hətta əsərdə onlar arasında "müqəddəs kasa" fenomeninə işarə vurulurdu. Bu işarə, Mariya Maqdalenanın Hz. İsadan hamilə qaldığını və onun varisini daşıdığını göstərirdi. Bu şifrəli məlumat, kilsənin təbliğ etdiyi Tann İsa kredosuna zidd idi. Buna görə də, bəzi eretik sektalar tərəfindən dəstəklənən bu yanaşma, katolik kilsə tərəfindən qəti şəkildə təkzib olunmuş və Mariya Maqdalena bir fahişə kimi təqdim edilmişdi. Mariya Maqdalenanın Hz. İsa ilə evlənməsi məsələsi heç bir zaman dini müstəvidə müzakirə obyekti olmamışdı. Əgər belə bir məsələ gündəmə gəlsəydi, bu evlilik modeli xristianlar üçün bir ailə modelinə çevrilər və Avropada erkən nikahların, gender bərabərsizliyinin qarşısı alınardı. Çünki ilkin məlumatlardan anlaşıldığı kimi, Mariya Maqdalena Hz. İsanın həvarilərindən biri olmuş və ona ərə gedərkən, fiziki və əqli baxımdan, yetkin bir qadın olmuşdur.

Bunlar göstərir ki, intibah orta əsrlərdə formalaşan dünyagörüşü sistemini incəsənət vasitəsilə tədricən dəyişməyə çalışsa da, bu, uzun bir idraki təkamül prosesi idi. Çünki qadının istismarı ilə bağlı olan erkən evlilik məsələsi o qədər dərin siyasi-iqtisadi təmələ söykənmişdi ki, onu ortadan qaldırmadan, irəliləyiş əldə etmək mümkün deyildi. Bu prosesin sürətlənməsi üçün, sosial-iqtisadi münasibətlərin dəyişməsi vacib idi. Avropada XVII-XVIII əsrlərdən başlayaraq, kapitalizmin formalaşması və XIX əsrdə modernizmin meydana çıxması Avropa cəmiyyətində ənənəvi sistemin çökməsinə və yeni sosial-iqtisadi mühitin yaranmasına səbəb oldu.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***





# Ağcabədidə “Nəsimi İli” çərçivəsində bədii qiraət müsabiqəsi keçirilib

***Azərbaycan ədəbiyyatında ictimai-fəlsəfi şeirləri ilə xüsusi yer tutan, klassik mütəfəkkir şair İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə YAP Ağcabədi rayon təşkilatının inzibati binasında rayonun ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında bədii qiraət müsabiqəsi keçirilib.***

Tədbiri giriş sözü ilə açan YAP Ağcabədi rayon təşkilatının aparat rəhbəri Nazim Bünyatov bu il İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinin tamam olduğunu bildirib. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 2019-cu ilin “Nəsimi İli” elan edilməsi haqqında Sərəncamı ölkəmizin mədəni həyatında əlamətdar hadisəyə çevrilib: “Bu Sərəncam dövlət başçısının bədii sözə və ədəbiyyatımıza, incəsənət və mədəniyyətimizə verdiyi böyük dəyər və qayğının daha bir nümunəsidir. Dövlət başçısının müvafiq Sərəncamına əsasən, Nəsiminin 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ölkədə milli mədəniyyətə və incəsənətə yüksək səviyyədə münasibətin göstəricisidir. Ölkə ictimaiyyəti “Nəsimi İli” çərçivəsində milli-mənəvi dəyərlər silsiləsinin Nəsimi irsini bütün platformalarda müzakirə edir və geniş səpkidə tədbirlər reallaşır”.

Aparat rəhbəri rayon təşkilatının keçirdiyi bədii qiraət müsabiqəsi rayonun ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında keçirildiyini diqqətə çatdırıb. Müsabiqənin qaliblərinin Fəxri Fərman və hədiyyələrlə mükafatlanacağını və Respublika Müsabiqəsində iştirak edəcəyini qeyd edib.

Bədii qiraət müsabiqəsində münsiflər heyətinin yekdil qərarına əsasən, Kəhrizli kənd tam orta məktəbin XI sinif şagirdi Xədicə Məmmədova I, Sarıcalı kənd tam orta məktəbin X sinif şagirdi Səbinə Əliyeva II, Ağcabədi şəhər 1 saylı tam orta məktəbin IX sinif şagirdi Nəzrin Məmmədova III yerə layiq görülüblər.

***ZÜMRÜD***

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin 4-cü kurs 411-ci qrup tələbəsi Nəbiyeva Aytac Nəbi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat-informatika müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Yunusov Amil Vəli oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# YAP Kürdəmir rayon təşkilatında “Nəsimi İli” ilə bağlı tədbir keçirilib





***Dünən YAP Kürdəmir rayon təşkilatı tərəfindən rayonun ümumtəhsil məktəblərinin şagirdləri arasında Azərbaycanın mütəfəkkir şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş bədii qiraət müsabiqəsi keçirilib. Tədbiri giriş sözü ilə YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli açaraq xatırladıb ki, Prezident İlham Əliyevin Sərəncamı ilə görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu il “Nəsimi İli” elan edilib. Bu Sərəncam dövlət başçısının bədii sözə və ədəbiyyatımıza, incəsənət və mədəniyyətimizə verdiyi böyük dəyər və qayğının daha bir nümunəsidir. Ölkə ictimaiyyəti “Nəsimi İli” çərçivəsində milli-mənəvi dəyərlər silsiləsinin Nəsimi irsini bütün platformalarda müzakirə edir və geniş səpkidə tədbirlər reallaşır.***

Qeyd olunub ki, YAP Kürdəmir rayon təşkilatı tərəfindən keçirilən müsabiqədə ümumtəhsil məktəblərinin şagirdləri iştirak edib. Yaradılmış münsiflər heyətinin iştirakı ilə iştirakçılar dinlənildi. Səsləndirilən əsərlərdə İmadəddin Nəsiminin Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından olduğu bir daha öz ifadəsini tapıb.

Münsiflər heyətinin üzvləri Kürdəmir rayon Uşaq Yaradıcılıq İnkişaf Mərkəzinin direktoru Nəsibə Hidayətova, Kürdəmir Regional Mədəniyyət İdarəsi N.Nərimanov adına Mədəniyyət Mərkəzinin direktoru Sevinc Həsənova, Kürdəmir şəhər 3 saylı tam orta məktəbin dil - ədəbiyyat müəllimi Günəş Xudiyeva, Kürdəmir Regional Mədəniyyət İdarəsinin məsləhətçisi Nazim Çıraqov, N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran şöbəsinin müdiri Yaqut Əşrəfova, YAP Kürdəmir rayon təşkilatının baş məsləhətçisi Məhəmməd Heydərli, Kürdəmir rayonu Bağman kənd tam orta məktəbinin dil-ədəbiyyat müəllimi Xalid Bayramov, hər bir iştirakçı haqqında fikirlərini bildiriblər.

Münsiflər heyətinin qərarı ilə şəhər 3 saylı tam orta məktəbinin şagirdi Abdullayeva Sahilə Fərman qızı birinci, şəhər 1 saylı tam orta məktəbinin şagirdi Heydərova Təranə İsrafil qızı ikinci, Atakişili kənd tam orta məktəbinin şagirdi Kərimova Natavan Ramiq qızı üçüncü yerə layiq görülüblər. Onlar Bakı şəhərində keçiriləcək final mərhələsinə vəsiqə qazanıblar. Qaliblər YAP Kürdəmir rayon təşkilatı tərəfindən Fəxri Fərman və və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

***Rəfiqə HÜSEYNOVA***

# Müştərilərin rahatlığı üçün “Nar” artıq hipermarketdə



Müştərilərinin rahatlığını və xidmət səviyyəsini daha da artırmaq məqsədilə, “Nar” satış nöqtəsi insanların daha çox olduğu məkanlarda da xidmət göstərməyə başlayır. Mobil operator “Bravo” supermarketlər şəbəkəsinin Əhmədli qəsəbəsində yerləşən filialında yeni satış nöqtəsini istifadəyə verib. Hipermarketdə yerləşən satış nöqtəsində “Nar” öz müştərilərinə müxtəlif təkliflərlə xidmət göstərəcək. Müştərilər bu məkanda “Nar” nömrələrini və Wi-FI ruterini ala, eyni zamanda SİM kart dəyişikliyi edə bilərlər. Gələcəkdə digər hipermarketlərdə də “Nar” satış nöqtəsinin açılması planlaşdırılır.

Qeyd edək ki, yeni satış nöqtəsi Xətai rayonu, Ramiz Quliyev küçəsi 4 ünvanında yerləşən “Bravo” hipermarketində yerləşir. İş saatı isə həftənin bütün günləri, saat 10:00 -dan 19:00 - a qədərdir.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**